# ZƏFƏR YOLUNA İŞIQ SALAN MAYAK

Həyatını Azərbaycanın inkişafına həsr edən, xilaskarlıq missiyasını sonadək yerinə yetirən Heydər Əliyevin zəngin dövlətçilik irsi sahib olduğumuz əvəzsiz sərvətdir.

Müstəqilliyə aparan yolun təməllərinin hələ keçən əsrin 60-70-ci illərində atıldığını azadlıq mübarizəsi, birinci Qarabağ savaşı zamanı bir daha müşahidə etdik. Azərbaycanın Ulu Öndərlə yolları növbəti dəfə 1993-cü ildə kəsişdi. Heydər Əliyev ən ağır zamanda xalqının çağırışına tabe olaraq xilaskar missiyasını üzərinə götürdü.



Onun zəngin idarəetmə təcrübəsi, uzaqgörən siyasəti və dəmir iradəsi sayəsində məhv olmaq, vətəndaş müharibəsi təhlükəsi ilə üzləşən Azərbaycan küllərindən yenidən doğdu. Sağlam təməllər üzərində güclü, müstəqil Azərbaycanın yenidən qurulmasına start verildi. Xalq Ulu Öndərin hakimiyyətə qayıdışı ilə yenidən nəfəs almağa, uğurlu gələcək haqqında xəyallar qurmağa başladı.

SƏHİFƏ 5-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

www.kaspi.az

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

11 MAY ŞƏNBƏ 2024 № 17 (4168)

Qiyməti - 40 qəpik






## ALMATIDA NÖVBƏTİ DANIŞIQLAR

Almatıda Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan arasında görüş keçirilib. "Report" xəbər verir ki, danışıqlar 4 saat davam edib. Müzakirələr bu gün davam etdiriləcək.

SƏHİFƏ 3-də



## BAKIDAN AVROPAYA ÜNVANLANAN MESAJ

Bu həftə Avropa İttifaqının iki üzvünün dövlət və hökumət başçıları Azərbaycana səfər edərək siyasət saatının əqrəblərini Bakı vaxtı ilə uyğunlaşdırmaq üçün müzakirələr apardılar.

SƏHİFƏ 4-də



## MƏSKUNLAŞMA İLƏ ŞUŞANIN YENİ TARİXİ BAŞLAYIR

# "ŞUŞAYA XOŞ GƏLMİSİNİZ"

Prezident İlham Əliyev: "Bütün evlər gözəl memarlıq üslubunda - Şuşanın ənənəvi üslubunda inşa edilmişdir. Şərait çox gözəldir və əminəm ki, uzun fasilədən sonra şuşalılar burada rahat yaşayacaqlar, yaradacaqlar, quracaqlar, öz doğma şəhərinin tarixi simasını qoruyacaqlar".

**ELƏ BİR GÖZƏL ŞƏHƏR YARADILIR Kİ...**

"Elə bir gözəl şəhər yaradılır ki, əminəm, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək. Bir daha demək istəyirəm, biz azad edilmiş bütün torpaqlarda genişmiqyaslı proqramları icra edirik. Bu gün artıq Şuşa altıncı yaşayış yeridir ki, keçmiş köçkünlər buraya qayıdır".

**NƏ BİZ UNUDACAĞIQ, NƏ DƏ DÜNYA**

"Erməni vandallığını nə biz unudacağıq, nə də dünya unudacaq. Şuşanı nə qədər erməniləşdirməyə çalışsalar da, ona nail ola bilməyiblər. Çünki Şuşa əzəldən Azərbaycan şəhəri olub, işğal dövründə də öz azərbaycançılıq simasını qoruyub saxlayıb".

SƏHİFƏ 3-də



## BAZARDA ÇİYƏLƏK BOL, QİYMƏT UCUZ

Hazırda bazarlarda çiyələk xeyli ucuzlaşıb. Fermerlər bunu Rusiya bazarında alıcılıq səviyyəsinin zəifləməsi ilə əlaqələndirirlər. Ekspertlər isə çıxış yolunu alternativ bazarlar tapmaqda görürlər.

SƏHİFƏ 11-də



## MOLDOVADA SİYASİ QÜTBLƏŞMƏ PİK HƏDDƏ

Prezident Maya Sandu ölkəsinin Ukraynanın müharibədən sonrakı bərpası üçün Avropa ölkələrinin dəfələrlə təklif etdiyi "Marşall Planı"nın analoquna daxil edilməsini istəyir. Rusiya isə Qaqauzu öz tərəfinə çəkməyə çalışır.

SƏHİFƏ 6-da



## YAXIN ŞƏRQİN MANHETTENİ

Əbu-Dabi turistlər üçün cəlbedicidir. Diqqəti daha çox uca göydələnlər, yamyaşıl bağlar, məscidlər, fəvvarələr, gecələr bərq vuran işıqlarının yaratdığı heyrətamiz gözəllik və unikal memarlıq cəlb edir.

SƏHİFƏ 13-də

Leyla ilə Berndin maraqlı tanışlıq tarixçəsi

## İTMİŞ TELEFONLA BAŞLAYAN EŞQ HEKAYƏSİ



Leyla: "Məndə Azərbaycan yeməklərinə aid balaca kitabça var idi. Onu Berndə göstərdim. Bəyəndi və dedi ki, o zaman hər gün bu yeməklərdən mənim üçün bişir. Bəyəndiyi yeməklərdən özü də hazırlayır. Badımcan dolması, kükü, kişmiş və ərikli plov bişirir".

SƏHİFƏ 8-9-da



## TƏHLÜKƏ YARADAN MARKETİNQ GEDİŞİ

Aparılan tədqiqatlar göstərir ki, bəzi elektron siqaretlərin tüstüsündə toksik maddələrin səviyyəsi siqaret qədər olur. Həmin zərərli maddələrin hüceyrədaxili təsiri ola və onlar da xərçəng xəstəliyinə yol aça bilər.

SƏHİFƏ 14-də



Ucuzlaşacaq, yoxsa ucuzlaşmayacaq?

SƏHİFƏ 10-da



SOCAR biznesini genişləndirəcək

SƏHİFƏ 3-də



USAİD-dən verilən tapşırıqlar

SƏHİFƏ 7-də



Cavanlar azalır, qocalar çoxalır

SƏHİFƏ 12-də



Etimadı doğrultmayan legionerlərimiz

SƏHİFƏ 16-da



# Mədəniyyət ictimaiyyətindən Mehriban Əliyevaya təbrik

Ölkəmizin mədəniyyət ictimaiyyəti Heydər Əliyev Fondunun yaradılmasının 20 illik yubileyi münasibətilə Fondun rəhbəri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya təbrik müraciəti ünvanlayıb. Təbrikdə deyilir:

"Sizi Heydər Əliyev Fondunun yaradılmasının 20 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Müstəqil Azərbaycanın qurucusu, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əziz tutaraq, adının əbədiləşdirilməsi, onun dövlətçilik ideyalarının gələcək nəsillərə ötürülməsi, zəngin irsinin təbliğ edilməsi məqsədilə yaradılan Heydər Əliyev Fondu ölkəmizin milli-mənəvi və mədəni dəyərlərinin dünyada tanıdılması istiqamətində yorulmadan fəaliyyət göstərir.

Heydər Əliyev Fondu yarandığı gündən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu dövlət siyasətində yaxından iştirak edərək Sizin rəhbərliyinizlə Azərbaycan mədəniyyətinin inkişafı, milli-mənəvi dəyərlərin, multikultural ənənələrin qorunması və onların həm ölkə daxilində, həm də beynəlxalq aləmdə təşviqində mühüm rol oynayır. Bu siyasətin ən mühüm istiqamətlərindən olan işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin aparılmasında, müasir sosial-mədəni infrastrukturun qurulmasında, Azərbaycan mədəni irsinin ümumbəşəri dəyərlər qismində tanınmasında Fondun verdiyi töhfələr əvəzsizdir. Reallaşdırdığınız və dəstək olduğunuz yerli və beynəlxalq layihələr Azərbaycan mədəniyyətinin, tarixinin və dövlətçiliyinin bünövrələrini, xalqımızın özünə və ali dəyərlərə inamını möhkəmləndirir, mədəniyyətimizi hamı üçün əlçatan və doğma edir. Heydər Əliyev Fondunun Azərbaycanda və onun hüdudlarından kənarda müxtəlif maddi-mədəniyyət abidələrinin qorunması, bərpası və yenidən qurulması istiqamətində, eləcə də beynəlxalq mədəniyyət mübadiləsindəki misilsiz xidmətləri mədəniyyət ictimaiyyəti və xalqımız tərəfindən yüksək dəyərləndirilir.

İnsanların ümid, pənah yerinə çevrilmiş Heydər Əliyev Fondunun xeyriyyəçilik fəaliyyəti, 44 günlük Vətən müharibəsində və daha sonra şəhid və qazilərlə, onların ailələri ilə bağlı həyata keçirdiyi layihələr onun humanitar missiyasının bariz nümunəsidir.

Hörmətli Mehriban xanım!

Bir daha Sizi rəhbərlik etdiyiniz Heydər Əliyev Fondunun yubileyi münasibətilə təbrik edir, ölkəmizin hərtərəfli inkişafı naminə göstərdiyiniz dəyərli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzu edirik".

# ULU ÖNDƏR EHTİRAMLA ANILDI



**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin Fəxri xiyabanda məzarını ziyarət ediblər. Gün ərzində Ulu Öndərin parlaq xatirəsi Bakıda, respublikamızın bütün bölgələrində, o cümlədən işğaldan azad edilmiş ərazilərdə, eləcə də xarici ölkələrdə dərin ehtiramla anılıb.**

Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü tamam oldu. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin Fəxri xiyabanda məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, Ulu Öndərin xatirəsini ehtiramla anıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini dərin hörmətlə yad edib.

Dövlət başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub.

**DÖVLƏT RƏSMİLƏRİ FƏXRİ XİYABANDA**

Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev və digər rəsmi şəxslər də Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, Ulu Öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Ümummilli Liderin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

## XALQ FƏXRİ XİYABANA AXIN ETDİ



Qeyd edək ki, Ulu Öndərin parlaq xatirəsi Bakıda, respublikamızın bütün bölgələrində, o cümlədən işğaldan azad edilmiş ərazilərdə, eləcə də xarici ölkələrdə dərin ehtiramla anılıb.

Dünən səhər saatlarından başlayaraq müxtəlif idarə və müəssisələrin, təhsil ocaqlarının kollektivləri, hərbçilər, Qarabağ müharibəsinin veteranları, paytaxt sakinləri Fəxri xiyabana gələrək Ulu Öndərin məzarını ziyarət edib, ruhu qarşısında baş əyiblər. Məzar və abidə önünə təzə-tər güllər düzülüb, əklillər qoyulub. Dahi şəxsiyyətin Vətən və xalq qarşısında misilsiz xidmətləri bir daha minnətdarlıq duyğuları ilə xatırlanıb.

Müasir tariximizin bütöv bir dövrü Ulu Öndərin adı ilə bağlıdır. O, bütün ömrünü canından çox sevdiyi Azərbaycanın inkişafına həsr edib. Heydər Əliyev həyatda olmasa da, mənən xalqı ilə birlikdədir. Onun zəngin irsi, əbədiyaşar ideyaları yollarımızı işıqlandırır. Qarabağın azadlığa qovuşması, dövlət suverenliyimizin tam bərpası əsası Ulu Öndər tərəfindən qoyulmuş inkişaf strategiyasının məntiqi nəticəsidir.

Xalqımız Azərbaycanın qüdrətli, dünyada sayılıb-seçilən, qalib ölkəyə çevrilməsinə görə özünü Heydər Əliyevə borclu sanır. Fəxri xiyabanda yaşanan izdiham da Azərbaycan xalqının öz böyük oğluna vəfa borcunun ifadəsidir.

Fəxri xiyabandakı izdiham bir daha göstərir ki, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi qəlblərdə daim yaşayacaq.



## Almatıda növbəti danışıqlar

Almatıda Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan arasında görüş keçirilib. "Report" xəbər verir ki, danışıqlar 4 saat davam edib.
"Azərbaycan və Ermənistan sərhədlərin delimitasiyası çərçivəsində müvafiq əraziləri birgə minalardan təmizləyib və coğrafi koordinatları dəqiqləşdirib". Bunu Almatıda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib.
Onun sözlərinə görə, sərhədin Qazax rayonu hissəsində dirəklərin quraşdırılması demək olar ki, başa çatıb. O, həmçinin xatırladıb ki, Berlin görüşündən sonra tərəflər sülh sazişi layihəsi ilə bağlı fikir mübadiləsi aparıblar.
Nazir bildirib ki, Azərbaycan Ermənistanla normallaşma prosesinə böyük diqqət yetirir. "Biz bu prosesə böyük əhəmiyyət veririk və işi davam etdirməyə hazırıq", - o deyib.




## SOCAR biznesini genişləndirəcək

SOCAR Bolqarıstanda biznesini genişləndirməyi planlaşdırır və bu ölkədə daxili qazpaylayıcı şəbəkənin inkişafı üzərində işləyir. "Report" xəbər verir ki, bunu "SOCAR Balkany" şirkətinin rəhbəri Murad Heydərov Bakıda keçirilən Azərbaycan-Bolqarıstan biznes forumu çərçivəsində deyib.
Onun sözlərinə görə, SOCAR ilə Bolqarıstanın "Asarel Investment" şirkəti arasında Memorandum imzalanıb ki, bu da "SOCAR Balkany"nın Bolqarıstandakı biznesinin inkişafında daha bir addım deməkdir: "İndi biz Bolqarıstandakı mövcudluğumuzu genişləndirmək və son istehlakçılarla işləmək üçün imkanları araşdırırıq. Bu məqsədlə biz Bolqarıstanda daxili qazpaylayıcı şəbəkəni inkişaf etdirməyi planlaşdırırıq".

# "ŞUŞAYA XOŞ GƏLMİSİNİZ"

Prezident İlham Əliyev: "Bütün evlər gözəl memarlıq üslubunda - Şuşanın ənənəvi üslubunda inşa edilmişdir. Şərait çox gözəldir və əminəm ki, uzun fasilədən sonra şuşalılar burada rahat yaşayacaqlar, yaradacaqlar, quracaqlar, öz doğma şəhərinin tarixi simasını qoruyacaqlar".



Prezident İlham Əliyev Şuşa, Laçın və Füzuliyə səfər edib. Bir sıra təməlqoyma mərasimlərinə və açılışlara qatılıb.

### "ŞUŞANIN AZAD EDİLMƏSİ DÜŞMƏNİN BELİNİ QIRDI"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak edib və şəhərə köçmüş ilk sakinlərlə görüşüblər. Prezident görüşdə çıxış edərək bildirib ki, 44 günlük Vətən müharibəsi şanlı tariximizdir və Azərbaycan xalqı bundan sonra əbədi bu Zəfərlə fəxr edəcək. 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi düşmənin belini qırdı: "Bir dəfə Şuşa haqqında mənə sual veriləndə dedim ki, Şuşasız bizim işimiz yarımçıq qalacaq və hesab edirəm hər kəs anladı ki, Şuşa azad olunmadan biz dayanmayacağıq. Şuşa bizim əyilməz ruhumuzun rəmzidir. Şuşa hər bir Azərbaycan vətəndaşının qəlbində elə bir böyük iz buraxıb ki, Şuşasız müharibənin uğurla başa çatması mümkün deyildi".

### ŞUŞANIN YENİ TARİXİ BAŞLAYIR

Prezidentin sözlərinə görə, Şuşanın yeni tarixi başlayır: "Bax, bu gün biz dirçəldilən Şuşanı görürük. Təkcə bu gözəl binalar deyil, Şuşada çox genişmiqyaslı quruculuq işləri gedir. Bu gün Ulu Öndərin doğum günündə üçüncü yaşayış kompleksinin təməli qoyuldu. Keçən il mayın 10-da ikinci yaşayış kompleksinin təməli qoyulmuşdur. Bu birinci yaşayış kompleksində 450, ikincidə 300-ə yaxın, üçüncüdə isə 500-ə yaxın mənzil inşa ediləcək. Onun bir hissəsi artıq hazırdır. Bu gün siz bu mənzillərə köçəcəksiniz. Bütün evlər gözəl memarlıq üslubunda - Şuşanın ənənəvi üslubunda inşa edilmişdir. Şərait çox gözəldir və əminəm ki, uzun fasilədən sonra şuşalılar burada rahat yaşayacaqlar, yaradacaqlar, quracaqlar, öz doğma şəhərinin tarixi simasını qoruyacaqlar".

### "NƏYİ LAZIM BİLİRİKSƏ, ONU DA EDƏCƏYİK"

Dövlət başçısı bildirib ki, biz heç vaxt müharibə istəməmişik, bu gün də istəmirik: "Bu gün də baxın bizə qarşı, kimlər, necə deyərlər əsas rol oynayırlar - Fransa və Amerika. Bunu açıq demək lazımdır, daha çox Fransa. Onlar da bilməlidirlər ki, bizim iradəmizdən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil. Hansısa səfirin Şuşaya gəlməsi bizə minnət kimi təqdim edilməməlidir. Gəlir gəlsin, gəlmir, heç lazım da deyil. Guya onların gəlib-gəlməməsi ilə nəsə dəyişir, heç nə dəyişmir. Burada, bu torpaqda söz sahibi bizik. Bizim siyasətimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin. Hər halda hər kəs bilir ki, biz nəyə qadirik, Ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir. Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz. Nəyi lazım biliriksə, onu da edəcəyik".



### "ŞUŞA ƏZƏLDƏN AZƏRBAYCAN ŞƏHƏRİ OLUB"

Prezident vurğulayıb ki, Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq - ən müasir, ən rahat, ən gözəl: "Elə bir gözəl şəhər yaradılır ki, əminəm, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək. Bir daha demək istəyirəm, biz azad edilmiş bütün torpaqlarda genişmiqyaslı proqramları icra edirik. Bu gün artıq Şuşa altıncı yaşayış yeridir ki, keçmiş köçkünlər buraya qayıdır". Dövlət başçısı bildirib ki, ilin sonuna qədər ən azı 20 yaşayış məntəqəsində artıq həyat bərpa ediləcək. Onun sözlərinə görə, erməni vandallığını nə biz unudacağıq, nə də dünya unudacaq: "Şuşanı nə qədər erməniləşdirməyə çalışsalar da, ona nail ola bilməyiblər. Çünki Şuşa əzəldən Azərbaycan şəhəri olub, işğal dövründə də öz azərbaycançılıq simasını qoruyub saxlayıb".

Qeyd edək ki, Prezident İlham Əliyev Füzuliyə səfəri zamanı Köndələnçay su anbarları kompleksinin təmir-bərpadan sonra açılışında iştirak edib. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda görülən işlərlə tanış olub, birinci tunelin açılışına qatılıb. Dövlət başçısının Şuşaya səfəri zamanı üçüncü yaşayış kompleksinin, Turşsu qəsəbəsinin təməli qoyulub, Şirin su hamamının, Mamayı məscidinin bərpadan sonra açılışları olub. Dövlət başçısı Laçına səfəri çərçivəsində Sus kəndinə köçmüş sakinlərlə görüşüb, kiçik su elektrik stansiyalarının açılışlarında iştirak edib.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# Bakıdan Avropa İttifaqına ÜNVANLANAN MESAJ

Bu həftə Avropa İttifaqının iki üzvünün dövlət və hökumət başçıları Azərbaycana səfər edərək siyasət saatının əqrəblərini Bakı vaxtı ilə uyğunlaşdırmaq üçün müzakirələr apardılar. Söhbət Slovakiyanın Baş naziri Robert Fitso və Bolqarıstan Prezidenti Rumen Radevin Bakı səfərlərindən gedir.



AQŞİN KƏRİMOV

Slovakiyanın Baş naziri Robert Fitso mayın 7-də, Bolqarıstan Prezidenti Rumen Radev isə bir gün sonra Azərbaycana səfər edərək Prezident İlham Əliyevlə geniş gündəliyə söykənən müzakirələr apardılar. Fitsonun və Radevin səfəri zamanı imzalanan sənədlər və verilən bəyanatlar, o cümlədən Slovakiya baş nazirinin üzvü olduğu Avropa İttifaqını Bakıdan tənqid etməsi diqqətdən kənarda qala bilməzdi. Bu tənqid Azərbaycanla Qərb siyasi sisteminə daxil olan bəzi ölkələr arasında gərginləşən münasibətlər fonunda daşları yerinə oturtdu. Slovakiyanın niyə belə bir xətt tutduğunu və nəyə görə Azərbaycanı dəstəklədiyini izah etməyə ehtiyac yaranır.

### SLOVAKİYANIN XARİCİ SİYASƏTİNƏ QISA BAXIŞ

Slovakiya xarici siyasətinin və təhlükəsizlik perspektivlərinin davamlılığına birbaşa təhlükələrin proqnozlarını hesablayan ölkədir. Slovakiya hökumətinin xarici siyasət, təhlükəsizlik və enerji siyasətinə diqqət yetirməsi onun suveren yanaşmalarını əks etdirir. Rəsmi Bratislavanın strategiyası daxili mühit və xarici istiqamətlər arasında qarşılıqlı əlaqələrlə ölkənin xarici siyasətini müəyyən edir.

Ölkə institusional olaraq Avropa İttifaqının ümumi siyasi və iqtisadi məkanında lövbər salıb. Üstəlik NATO-nun möhkəm təhlükəsizlik təminatları Slovakiya Respublikasının və onun vətəndaşlarının maraqlarının təmin edilməsi üçün optimal və keyfiyyətli çərçivə yaradır. Bununla belə, Slovakiya bir dövlət olaraq həyati maraqlarını düşünür və zamanla Qərbin bəzi siyasi addımlarına qarşı çıxır. Misal üçün, Slovakiya Avropa İttifaqının üzvü kimi qurumu tənqid edən ölkələrdəndir. Ukraynadakı müharibəyə görə Rusiyaya qarşı sanksiyalara səs verməkdən imtina etməsə də, proseslərin Slovakiyaya təsirlərini göstərən strateji təhlilləri ön plana çəkir.

### FİTSO BAKIDA AVROPA İTTİFAQINI "VURDU"

Robert Fitsonun Prezident İlham Əliyevlə mətbuata birgə bəyanat zamanı belə bir mövqe səsləndirməsi diqqət çəkdi: "Avropa İttifaqının üzvü olan ölkənin nümayəndəsi kimi deyə bilərəm ki, Avropa İttifaqı ara-sıra digərlərinə təlimat verməyi xoşlayır. Mən isə siyasi təcrübəmdə heç vaxt heç bir ölkənin daxili işlərinə qarışmamağa üstünlük verirəm".

Fitsonun bəyanatı onun Əliyevin xarici siyasətini bəyənməsi ilə əlaqədar ifadə etdiyi cümlələrin ardınca gəldi. Yəni Fitso Avropa İttifaqındakı bəzi dairələrin Azərbaycanla əlaqələri nəzərə almamasını kəskin tənqid etdi və Bakının regional arxitekturadakı əhəmiyyətli yerini vurğuladı. Bu, Azərbaycanın qonşularla və tərəfdaşlarla münasibətləri, regional əməkdaşlığı bərabərtərəfli hüquq əsasında qurmaq strategiyası ilə uyğunluq təşkil edən mövqedir.

## SİLAHLARLA MÜDAFİƏ GÜCLƏNİR

Azərbaycan enerji resursları ilə bərabər, hərbi potensialı ilə ənənəvi olaraq fəal beynəlxalq əməkdaşlıqda olduqca maraqlıdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev mətbuata birgə bəyanat zamanı Azərbaycanın Avropa İttifaqı ilə imzalanmış qaz və enerji sahəsində strateji tərəfdaşlıq Bəyannaməsini icra etdiyini dedi. Bununla yanaşı bildirdi: "Azərbaycanda qaz hasilatı artır, yeni yataqlar kəşf olunur və o yataqlarda istismar artıq başlayıb. Eyni zamanda, bizim genişmiqyaslı yaşıl gündəliyimiz də icra edilir və bir çox bərpaolunan külək və günəş enerjisi stansiyalarının inşa olunması bizə qaza qənaət etmək imkanı yaradacaq və təbii ki, bu qazın əsas istiqaməti və əsas ünvanı Avropa olacaq".

Slovakiya da Azərbaycanın coğrafi mövqeyinin onun strateji yerləşməsinə nə qədər təsir etdiyini anlayır. Belə vəziyyət Azərbaycanın xarici siyasətinə daimi təsir göstərən amillərdən biridir və Bratislavanın yanaşmaları ilə oxşarlıq təşkil edir.



## "CƏNAB PREZİDENTLƏ BƏZİ LAYİHƏLƏRİ MÜZAKİRƏ ETDİK"

Oxşarlıqları ikitərəfli əlaqələrin perspektiv təhlükəsizlik rejiminə salmaq üçün Azərbaycanla Slovakiyanın müdafiə sahəsində də əməkdaşlığına ehtiyac yaranır. Buna görədir ki, baş nazirin səfəri çərçivəsində iki dövlət arasında "Müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş" imzalandı.

Baş nazir yerli mətbuata müsahibəsində saziş üzrə bəzi detalları açıqlayıb: "Slovakiyada müdafiə sənayesinin inkişafını dəstəkləmişəm. Cənab Prezidentlə bəzi layihələri müzakirə etdik. Texnologiya Slovakiyadan və maliyyə Azərbaycandan olacaq. İstehsal ediləcək silahlar ya ixrac olunacaq, ya da Azərbaycanda qalacaq. Bildiyimiz kimi, Ukraynadakı müharibə parametrləri tamamilə dəyişib. Hazırda silahlarla bağlı ciddi çatışmazlıq var. Bunu edə bilsək, hər iki ölkə üçün faydalı olacağını düşünürəm".

Bu saziş, göründüyü kimi, qanuni silah ixracı üzrə Azərbaycanın yerini Slovakiya xammalı hesabına daha da möhkəmləndirəcək. Slovakiya ilə imzalan sənəd göstərir ki, Bakı ilə Bratislava gələcək təhdidlərin təzahürlərinə qarşı müştərək müstəsna hüquq qazanmağı hədəfləyirlər.

Bu, Azərbaycanın Avropa İttifaqı arenasındakı prioritetlərini və maraqlarını təmin etməyə yönəlik əlavə dəstək paketi olaraq qiymətləndirilə bilər.

Göründüyü kimi, Azərbaycanla Slovakiya xarici siyasətlərindəki dəyərləri, maraqları qarşılıqlı hörmətə əsaslanan meyarlar üzərində qururlar. Bakı ilə Bratislava arasındakı bu dinamika onların beynəlxalq təşkilatlarda və qlobal siyasi münasibətlərdə bir-biriolərinə dəstək baxımından önəmə malikdir.

# Zəfər yoluna işıq SALAN MAYAK



**Bütün həyatını Azərbaycanın inkişafına həsr edən, xilaskarlıq missiyasını sonadək yerinə yetirən Heydər Əliyevin zəngin dövlətçilik irsi sahib olduğumuz əvəzsiz sərvətdir.**

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan xalqı növbəti dəfə Ümummilli Lider Heydər Əliyevi 101-ci doğum günündə ehtiramla andı. Minlərlə insan Fəxri Xiyabana axın edərək müstəqil Azərbaycanın qurucusu olan Ulu Öndərə ehtiramını bildirdi.

### MİLLİ MƏNLİK, MİLLİ ÖZÜNÜDƏRK

Bütün həyatını Azərbaycanın inkişafına həsr edən, xilaskarlıq missiyasını sonadək yerinə yetirən Heydər Əliyevin zəngin dövlətçilik irsi sahib olduğumuz əvəzsiz sərvətdir. Onun ideyaları, baxışları işıqlı gələcəyə, yeni hədəflərə gedən yolda sönməyən mayakdır.

Hələ 1969-cu ildə Ulu Öndər ölkəyə ilk dəfə rəhbərlik etdiyi dövrdə inkişaf səviyyəsinə görə SSRİ-də ən geridə qalan bir respublikanı qabaqcıllar sırasına çıxarmaqla müasir, müstəqil Azərbaycanın uğurlu inkişafının təməllərini atırdı. Müxtəlif sənaye müəssisələrinin qurulması, aqrar sektorda aparılan islahatlar, Azərbaycan dilinin ilk dəfə rəsmi dil statusu qazanması, minlərlə gənc kadrın aparıcı ali təhsil müəssisələrinə göndərilməsi, Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması və burada gənc azərbaycanlı zabitlərin yetişdirilməsi Heydər Əliyevin hələ Azərbaycana birinci dəfə rəhbərlik edərkən göstərdiyi xidmətlərin kiçik bir hissəsidir. Ulu Öndər o zamandan etibarən Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinə, alimlərə xüsusi diqqət və qayğı nümayiş etdirirdi. Xalqın azadlığa, müstəqilliyə aparan yolda milli mənlik, milli özünüdərk şüurunun formalaşması üçün bu ziyalıların nə dərəcədə mühüm rol oynadığını gözəl bilən Heydər Əliyev onları SSRİ-nin repressiya dalğasından qorudu.



### AZƏRBAYCAN KÜLLƏRİNDƏN YENİDƏN DOĞDU

Müstəqilliyə aparan yolun təməllərinin hələ keçən əsrin 60-70-ci illərində atıldığını azadlıq mübarizəsi, birinci Qarabağ savaşı zamanı bir daha müşahidə etdik. Azərbaycanın Ulu Öndərlə yolları növbəti dəfə 1993-cü ildə kəsişdi. Heydər Əliyev ən ağır zamanda xalqının çağırışına tabe olaraq xilaskar missiyasını üzərinə götürərək bu dəfə batmaq təhlükəsi ilə üzləşən müstəqil Azərbaycanın sükanı arxasına keçdi. Onun zəngin idarəetmə təcrübəsi, uzaqgörən siyasəti və dəmir iradəsi sayəsində məhv olmaq, vətəndaş müharibəsi təhlükəsi ilə üzləşən Azərbaycan küllərindən yenidən doğdu. Sağlam təməllər üzərində güclü, müstəqil Azərbaycanın yenidən qurulmasına start verildi. Xalq Ulu Öndərin hakimiyyətə qayıdışı ilə yenidən nəfəs almağa, uğurlu gələcək haqqında xəyallar qurmağa başladı.

## MÜDRİKLİK VƏ FƏDAKARLIQ NÜMUNƏSİ

Ulu Öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi illər dövlətçilik tariximizdə siyasi ustalıq, dərin zəka, müdriklik, fədakarlıq və vətənpərvərlik nümunəsi kimi əksini tapdı. Bəs nə idi bu fəaliyyəti dövlətimiz, xalqımız üçün bu dərəcədə əhəmiyyətli edən məqamlar? Nəzər yetirək:

- Daxili ictimai-siyasi xaosa son qoyuldu, vətəndaş müharibəsinin qarşısı alındı, idarəetmədəki iflic vəziyyət ortadan qaldırıldı;
- Müharibədən, işğaldan yorulmuş Azərbaycanı yenidən dirçəltmək üçün atəşkəs imzalandı, qanunsuz hərbi birləşmələr ləğv edilərək vahid və peşəkar ordu quruculuğu prosesinə start verildi;
- "Əsrin müqaviləsi"nə imza atılmaqla müasir Azərbaycanın iqtisadi inkişafının bazisini təşkil edən neft strategiyası hazırlandı. Bu müqavilə həm də Azərbaycanın müstəqil dövlət kimi beynəlxalq aləmdə bir aktor olaraq qəbulunun göstəricisi idi;
- İlk dəfə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi;
- Hiperinflyasiyanın qarşısı alındı, ölkədə iqtisadi vəziyyət sabitləşdirildi, əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində mühüm qərarlar verildi;
- Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğu beynəlxalq ictimaiyyət tərəfindən birmənalı olaraq qəbul edildi;
- Dövlət dili, azərbaycançılıq ideologiyasının formalaşdırılması, dünya azərbaycanlılarının vahid amal ətrafında birləşməsi, vətənpərvər gəncliyin yetişdirilməsi, təhsil, səhiyyə, mədəniyyət sahələrinin inkişafı ilə bağlı çoxsaylı mühüm qərarlar verildi...

Bütün bunlar ömrünü Azərbaycanın inkişafına, onun müstəqilliyinin, suverenliyinin möhkəmlənməsinə həsr etməsi ilə fəxr etdiyini söyləyən Heydər Əliyev fenomeninin dövləti və xalqı qarşısındakı xidmətlərinin kiçik və ümumiləşdirilmiş bir hissəsidir.

### HEYDƏR ƏLİYEVİN RUHU ŞADDIR

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə qələbədən-qələbəyə doğru əmin addımlarla irəliləyən müstəqil güclü dövlətimiz Ulu Öndərin görmək istədiyi, arzuladığı və reallaşması üçün ömrünün böyük hissəsini fəda etdiyi Azərbaycandır. İşğala son qoyan, ərazi bütövlüyü, suverenliyi, sərhədləri bütöv, qüdrətli Azərbaycan. Şuşasında, Kəlbəcərində, Laçınında, Ağdamında sürətli bərpa quruculuq işlərinin aparıldığı, illərlə el-oba həsrəti çəkən milyondan artıq qaçqın və məcburi köçkünümüzün öz doğma yurdlarına qayıdışını böyük qürur hissi ilə müşahidə edən Ulu Öndərin ruhu bu gün şaddır. Çünki onun qurub-yaratdığı, bizlərə əmanət etdiyi müstəqil Azərbaycan dövlətinin əmin əllərdə olduğunu bilir. Heydər Əliyev siyasəti, strategiyası, dövlətçilik fəlsəfəsi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qarşısında yeni üfüqlər, hədəflər açır. Biz azərbaycançılıq məfkurəsini rəhbər tutaraq bu hədəflərə doğru inamla irəliləyirik.



# MOLDOVADA SİYASİ qütbləşmə pik həddə

**Prezident Maya Sandu ölkəsinin Ukraynanın müharibədən sonrakı bərpası üçün Avropa ölkələrinin dəfələrlə təklif etdiyi "Marşall Planı"nın analoquna daxil edilməsini istəyir. Rusiya isə Qaqauzda təqaüdçülərə maddi yardım etməklə, bölgəni öz tərəfinə çəkməyə çalışır.**



AZƏR NURİYEV
azernuriyev@kaspi.az

Postsovet məkanının iki ən narahat ölkəsi – Gürcüstan və Moldova üçün 2024-cü il kritik sayılır. Kişineu prezident, Tbilisi parlament seçkilərinə hazırlaşır. Hər iki ölkədə siyasi proseslərin dinamikası xüsusi proporsional geosiyasi istiqamət alır. Avropa vektorunu hər iki ölkənin əhalisinin əksəriyyəti dəstəkləsə də (Gürcüstan - 86%, Moldova - 54%), Avropa İttifaqı (Aİ) onlara 2023-cü ildə namizəd ölkə statusu versə də, geosiyasi qütbləşmə də əhəmiyyətli dərəcədə kəskindir. Gərginlik daha çox Moldovada hiss olunur. Rusiya ilə münasibətlər müasir Moldovanın bütün tarixi ərzində ən aşağı səviyyəyə düşüb. Ukraynada müharibənin miqyasının genişlənməsi Moldova-Rusiya münasibətlərini kəskinləşdirib. Parlamentdə Rusiya ilə imzalanan sənədlərin, xüsusilə strateji tərəfdaşlıq müqaviləsinin dayandırılması barədə çağırışlar səslənir. Aİ-yə üzvlüklə bağlı danışıqları sürətləndirən rəsmi Kişineu separatçı Dnestryanı bölgə və Qaqauza qarşı sərt qərarlar qəbul edir.

### SANDU AVROPADAN "MARŞALL PLANI" İSTƏYİR

Belə bir durumda prezident Maya Sandu Norveçə səfər edib. Qatı antirusiya mövqeli prezident danışıqlar zamanı bu ölkədən maliyyə, eləcə də müdafiə sahəsində əməkdaşlığı gücləndirməyi istəyib. Prezident ölkəsini Ukraynanın müharibədən sonrakı bərpası üçün Avropa ölkələrinin dəfələrlə təklif etdiyi "Marşall Planı"nın analoquna daxil edilməsini istəyir. "İkinci Dünya Müharibəsindən sonra ABŞ Qərbi Avropaya "Marşal Planı" ilə həyat xətti təklif etdiyi kimi, Avropa İttifaqının da Moldova və Ukraynaya yönəlmiş belə addım atmasına ehtiyac var", - deyə Moldova lideri bildirib. Sandu hesab edir ki, belə bir proqram "Aİ üzvlüyünə can atanlara eyni ümidi" verməlidir. "Biz tarixin mühüm məqamlarında insanların həyatını xilas etmək, sülhü bərpa etmək və azadlığı qorumaq üçün sərmayə qoymalıyıq", - deyə Moldova lideri əlavə edib. Eyni zamanda, o, Avropanın Rusiyanın Ukraynaya təcavüzü nəticəsində yaranan təhlükəsizlik çağırışlarına qarşı durmaq qabiliyyətinə dair nikbin olduğunu bildirib.



## "ÖLÜ SAZİŞ" LƏĞV EDİLMƏLİDİR"

Moldovada hakim partiya olan PAS-ın sədri İqor Qrosu bildirib ki, ölkəsi ilə Rusiya arasında strateji tərəfdaşlıq haqqında iki ölkə prezidentləri tərəfindən 2001-ci ildə imzalanmış saziş bu il dayandırıla bilər. Söhbət Moldova ilə Rusiya arasında dostluq və əməkdaşlıq haqqında sazişdən gedir. PAS lideri Moldova ilə Rusiya arasındakı bu əsas razılaşmanı "ölü" hesab edir. Onun fikrincə, heç bir halda Rusiyanı strateji tərəfdaş hesab etmək olmaz.

Rusiyapərəst qüvvələr dərhal ona qarşı əks-hücuma keçib. Onlar Moldova hakimiyyətinin anti-Rusiya qərarlarına qarşı çıxaraq, geniş təbliğat maşınını işə salıblar. Məsələn, Moldovanın cənubunda yerləşən Qaqauz Muxtariyyəti Xalq Məclisinin deputatı Sergey Çimpoeş bəyan edib ki, Moldova Rusiya ilə münasibətləri tamamilə kəsməyə və viza rejiminin tətbiqinə doğru irəliləyir. Moldovanın Sosial Demokrat Partiyasının lideri Viktor Şelin isə qeyd edib ki, "Rusiya ilə əsas sazişdən birtərəfli çıxmaq Moldovanı təhlükəsizlik zəmanətlərindən məhrum edir" və sosial-demokratlar buna qarşı çıxacaqlar.

## TƏHDİD KİMİ GÖRÜLƏN "QAQAUZ KARTI" İŞƏ SALINIR

Separatçılıq meyllərinin artdığı Qaqauz da hərəkətə keçib. Bu bölgə Rusiyanın ciddi təsiri altındadır. Moldova parlamentində Qaqauz muxtariyyətini təmsil edən deputat Aleksandr Suxodolski deyib ki, Rusiya ilə Moldova arasında siyasi gərginlik pik həddə çatıb. "Biz görürük ki, ölkə rəhbərliyi bu gün Qərb tərəfindən təşviq edilən antirusiya sanksiyalarını dəstəkləyir. Bu, aktiv siyasi mübarizənin pik mərhələsinə qədəm qoyduğunu açıq şəkildə göstərir", - deyə Suxodolski bildirib. Onun sözlərinə görə, Moldova hakimiyyəti Rusiya Federasiyası və MDB ölkələri ilə münasibətləri bərpa etməyə çalışan müxalif siyasətçilərlə də ciddi mübarizə aparır.



İqor Qrosu

### RUSİYA TƏQAÜDÇÜLƏRİ ƏLƏ ALIR

Bu arada, aprel ayında Rosselxoznadzor Qaqauz muxtariyyətinin müəssisələrinə Rusiya Federasiyasına kənd təsərrüfatı məhsullarının idxalına icazə verib, eyni zamanda Moldovanın qalan hissəsi üçün (Dnestryanı istisna olmaqla) qadağanı qoruyub saxlayıb. Bir çox moldovalı ekspert hesab edir ki, Rusiyanın Qaqauza yardımına Moldova Parlamentinin sədrinin müvafiq bəyanatı səbəb olub. Qaqauz Xalq Məclisinin deputatları muxtariyyətin rəhbəri Yevgeniya Qutsulun Moskvada imzaladığı maliyyə-kredit sahəsində əməkdaşlıq haqqında sazişi müzakirə edərək təsdiqləyiblər. Bu sənəd Qaqauz sakinlərinin pensiyalarına aylıq 2 min ley (təxminən 100 avro) məbləğində əlavələrin ödənilməsini təmin etməyə imkan verib. "Qaqauzda 20 minə yaxın təqaüdçümüz var, onlardan səkkiz mini artıq vəd olunan pulu ala bilib", – deyə muxtariyyətin xarici əlaqələr şöbəsinin rəis müavini Yuri Kuznetsov bildirib.



Viktor Şelin

Görünən odur ki, Moldovanı kritik günlər gözləyir. Nə Qərbin dəstəklədiyi iqtidar, nə də Rusiyadan dəstək alan müxalifət geri çəkilənə oxşamır. Bu səbəbdən də prezident seçkilərinin nəticələri bir çox məsələlərə aydınlıq gətirəcək.

# USAİD-DƏN PAŞİNYANA VERİLƏN TAPŞIRIQLAR



Baş nazir Nikol Paşinyanın Brüssel səfəri zamanı Ermənistanın Belçikadakı səfirliyində USAİD rəhbəri Samanta Pauerlə görüşü diqqətdən kənarda qalmayıb. Pauer vurğulayıb ki, təmsil etdiyi qurum İrəvanla sıx əməkdaşlığı davam etdirəcək.

FUAD ABASOĞLU

Bir ara İrəvana səfəri su yoluna döndərən və regionda qərəzli siyasətini yürütməkdən heç də çəkinməyən USAİD təmsilçiləri Ermənistanda yenidən fəallaşıblar. Təsis olunduğu vaxtdan etibarən təmsil etdiyi ölkənin, müxtəlif lobbi təşkilatlarının maraqlarının ifadəçisi kimi ad çıxaran bu qurumun üzvlərinin bir çoxunun ABŞ kəşfiyyatının əməkdaşları olduğu da sirr deyil. Bu səbəbdən baş nazir Nikol Paşinyanın Brüssel səfəri zamanı Ermənistanın Belçikadakı səfirliyində USAİD rəhbəri Samanta Pauerlə görüşü diqqətdən kənarda qalmayıb. Pauer vurğulayıb ki, təmsil etdiyi qurum İrəvanla sıx əməkdaşlığı davam etdirəcək. Bunun isə strateji anlamı var.

### PUL TƏLƏSİ

Belə ki, USAİD Ermənistanda dəyəri 23.1 milyon dollar olan yeni proqramlara start verdiyini bəyan edib. Məlum olub ki, 8.6 milyon dollar qurum tərəfindən enerji təhlükəsizliyinin möhkəmlənməsinə ayrılıb. Altı milyon dollar isə iqlim problemləri fonunda kənd təsərrüfatı məhsuldarlığını artırmalı olan "Ərzaq Təhlükəsizliyinin Gücləndirilməsi" proqramı üçün nəzərdə tutulub. Məqsəd idxaldan asılılığı azaltmaqdır. USAİD-in elan etdiyi iki proqram amerikalıların postsovet məkanından Rusiya Federasiyasını sıxışdırıb çıxarmaq, nəzarətedilən logistika yollarının yaranması, enerji bazarlarının ələ keçirilməsi strategiyasına tam uyğundur. Rusiya ilə Ermənistanın enerji sahəsində bir-birindən qopması üçün yol xəritəsi də hazırlanıb. Qeyd edək ki, hazırda erməni dövlətinin bütün enerji sisteminə nəzarət və idarəetmə Kremlin əlindədir.

### QARABAĞ ERMƏNİLƏRİNƏ TULAPAYI

Pauerin Qarabağ ermənilərinə ayırdığı yardım əslində gözə kül üfürməkdən başqa bir şey deyil. Bu məsələ artıq Ermənistanda da lağ mövzusuna çevrilib. Çünki adəti üzrə Pauer əvvəlcə bir məbləğ deyir, layihə reallaşanda isə dəfələrlə az məbləğin verildiyi üzə çıxır. Hətta erməni siyasi kulislərində danışırlar ki, Paşinyanın Samanta bibisi Qarabağ erməniləri ilə müqayisədə şəxsi fotoqraflarına daha çox pul ayırır.

## BÜTÜN LOGİSTİKA QƏRBƏ VERİLİR?

Bu yaxınlarda Ermənistanın Ərazi İdarəetmə və İnfrastruktur Nazirliyi baş nazirə yeni bir layihə göndərib. Layihəyə əsasən, ölkənin hava limanları, anbar kompleksləri, yol şəbəkələri uzunmüddətli, yəni 50-100 il müddətinə iqtisadi diversifikasiyanın bir hissəsi kimi inverstorlara icarəyə veriləcək. Maraqlıdır ki, layihəyə əsasən, bundan sonra erməni dövləti yol və digər infrastrukturların təmiri ilə məşğul olmayacaq, bu işə icarədarlar cəlb ediləcək. Bəs əslində nə baş verəcək? Layihə təsdiqləndikdən sonra Ermənistandan keçən bütün yol və marşrutlar Qərb şirkətlərinin idarəetməsinə veriləcək. Bu isə onlara bir sıra layihələrə, xüsusən də Zəngəzur dəhlizinə nəzarəti ələ keçirməsinə şərait yaradacaq. Sirr deyil ki, artıq iki ilə yaxındır ki, Ermənistanın cənubunda Avropa İttifaqının müşahidə missiyası fəaliyyət göstərir.

### PAŞİNYANIN KADR SİYASƏTİ ÖHDƏLİYİ

Paşinyanın götürdüyü öhdəliklərdən biri də Rusiya ilə yaxın əlaqəsi olan bütün şəxslərin vəzifədən uzaqlaşdırılmasıdır. Baş nazirə Qərbdə bildirilib ki, vəsait və dəstək yalnız etibar etdikləri insanlara verilə bilər. Bu isə erməni siyasi elitasında rusiyayönlü qanadın başı üzərində qara buludların toplaşmasından xəbər verir. Avropa İttifaqının bir sıra məmurlarının erməni təhlükəsizlik orqanları ilə bağlı ciddi narahatlıqları var və onlardan qurtulmaq tələb edilib. Bu sırada Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Edvard Asryanın adı qeyd edilir. Asryanla yanaşı, ordudakı Rusiyanın digər nüfuzlu fiqurlarından qurtulmaq da şərtlərdən biridir. Müdafiə naziri Suren Papikyanın komandirin şəxsi heyəti təbrik etdiyi vəziyyətlərdə "Ura!" təntənəli nidasını "Yaşasın!"a dəyişdirməsinə də bu prizmadan yanaşmaq lazımdır. Nazirlikdən bildirilir ki, "Ura" sovet ordusundan miras qalmışdı, indi onu ləğv etmək qərara alınıb.

Eyni zamanda daxili işlər nazirinin də dəyişdirilməsi tələbi var. Hakim partiyanın bir çox üzvü isə DİN müavini Arpine Sarkisyanın namizədliyinin əleyhinədir. Arpinenin Aİ strukturları ilə müəyyən əlaqələri var və buna görə də onun vəzifəsini qoruyub saxlamaqla yanaşı, gələcəkdə nazirlikdə ən yüksək postu tutmaq şansı da az deyil.



## RUSİYANIN CAVABI

Son günlər isə Ermənistanda kilsənin Baqrat Srbaza timsalında başlatdığı etiraz aksiyalarının "beşinci kolon" tərəfindən idarə edildiyi, Rusiyanın isə bu məsələdə xüsusi maraqlı olduğu ehtimal edilir. Çünki etirazlar ikinci prezident və Putinin şəxsi dostu kimi tanınan Robert Köçəryanın Srbaza ilə görüşündən sonra geniş vüsət alıb və eks-prezidentin komandasına məxsus siyasilərin xüsusi canfəşanlığı nəzərə çarpır. Bu isə artıq rusiyayönlü qanadın hərəkətə keçməsi, baş naziri devirmək üçün həm kilsədən, həm də Kremlin siyasi kulislərindən dəstək alması mənasına gəlir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

AZƏRBAYCANLI LEYLA İLƏ AVSTRİYALI KÜRƏKƏN BERNDİN MARAQLI TANIŞLIQ TARİXÇƏSİ "KASPİ"DƏ

# İTMİŞ TELEFONLA BAŞLAYAN EŞQ HEKAYƏSİ







SÖHBƏTLƏŞDİ
Zərif Salmanlı
zarifsalmanli@kaspi.az

**Bernd:** "Toyda hər şey çox qeyri-adi idi. Musiqiçilər gəlinin evinə gəlirlər. Həmçinin toyda qonaqlar hədsiz çox olur. Avstriyada toyda 80-100 nəfər olduqda çox böyük məclis hesab edilir".

"Sən saydığını say, gör fələk nə sayır". Yəqin bu ifadəni çoxumuz eşitmişik. Leyla və Bernd cütlüyü üçün də bu ifadə tam yerinə düşür, deyə bilərik. Özünü inkişaf etdirmək üçün ali təhsil ardınca Avstriyaya gedən Leyla nə bilirdi ki, məhz qaldığı yataqxanada öz yarını tapacaq.

Leyla düşünüb ki, təhsil alıb tezliklə ailəsinin yanına qayıdacaq. Amma qismət öz işini görüb, onu Avstriyada Berndin həyat yoldaşı edib. Cütlük artıq 15 ildir ki, bərabərdir. Onların Teodor və Dominik adında iki övladı var. "Kaspi" qəzetinin "Ailə" rubrikasının budəfəki qonaqları azərbaycanlı Leyla və avstriyalı kürəkən Bernddir.

## "TANIŞLIĞIMIZ BİR AZ ÇƏTİN OLMUŞDU"

Leyla deyir ki, Berndlə sevgiləri keşməkeşlərdən keçib: "Tanışlığımız bir az çətin olmuşdu. Bizi üç dəfə tanış etmişdilər. Birinci dəfə Berndi gördükdə mən hələ Avstriyaya oxumağa təzə getmişdim, bir neçə həftə idi. Onu ilk dəfə tələbə yataqxanasının dəhlizində görmüşdüm. Dostu bizim universitetdə oxuyurdu, o da arada yataqxanaya gəlirdi. Həmin gün dəhlizdə uşaqlarla söhbət edirdilər. Mən söhbət etdiyi hər kəsi tanıyırdım, yalnız Bernddən başqa. Bizi tanış etdilər. Sadəcə salam verdi və mən də onunla salamlaşdım, keçdim getdim. İkinci dəfə isə futbol oyununa baxanda qarşılaşdıq. Birinci görüşümüzdən bir neçə ay keçmişdi. Yataqxanadakı uşaqlarla futbol qarşılaşmasına baxırdıq. Hər kəsin başı oyuna qarışmışdı. Yenə sadəcə salamlaşdıq və futbola baxmağa davam etdik".

## "FƏRQİNƏ VARDIM Kİ, ONUN XOŞUNA GƏLİRƏM"

Leylanın sözlərinə görə, üçüncü - əsas tanışlığın səbəbkarı itən telefon olub: "Rəfiqəm Berndin maşınında telefonunu unutmuşdu. Telefonunu götürmək üçün getdikdə, mən də onunla getdim. Biz o zaman bir də tanış olduq. Bernd və dostu bizi şam yeməyinə dəvət etdilər. Bərabər Vyetnam restoranına getdik. Orada fərqinə vardım ki, onun xoşuna gəlirəm. Bundan iki həftə sonra mənə "Facebook" üzərindən yazdı. Bundan sonra bizim görüşlərimiz və münasibətimiz başladı".

Bernd isə Leylanı ilk gördüyü andan ona qarşı hissləri yaranıb: "Ekzotik qız idi. Asiyalı olduğu üçün mənə maraqlı gəlirdi. Düşündüm ki, risk edib bu qızı mütləq görüşə çağırmalıyam".



## "ELƏ BİLDİM Kİ, BUNUNLA DA ARAMIZDAKI HƏR ŞEY BİTƏCƏK"

Leyla bizə sevgilərinin ən çətin anlarından da bəhs etdi: "Tanış olduğumuz ərəfələrdə özümü yaxşı hiss etmirdim. Üçüncü görüşdən sonra həkimə getmişdim. Mənə demişdilər ki, "vərəm xəstəsisən". Çox pis olmuşdum. Berndə bunu xəbər verdim. Ona dedim ki, "mən xəstəyəm və bizdə heç nə alına bilməz". Düşündüm ki, heç kim cəmi üç dəfə görüşdüyü vərəm xəstəsi qızla danışmaq istəməz. Elə bildim ki, bununla da aramızdakı hər şey bitəcək. Bernd həmin zaman ezamiyyətdə idi. Yazdı ki, sabah qayıdıram və görüşərik. Sonra müdirim məni ağciyər xəstəxanasına apardı. Berndlə tanış idilər və məni hara apardığını demişdi. Məni beş gün xəstəxanada saxladılar və müxtəlif testlər etdilər. Bu dönəmdə Bernd daim mənim yanımda oldu. O zaman anladım ki, o çox qəlbi təmiz insandır".

Bernd isə deyir ki, Leyla xəstələndiyi zaman xəstəxanaya onun yanına gəldiyi vaxt başa düşüb ki, bu xanım onun həyat yoldaşı olmalıdır.

## "AĞLIMA DA GƏLMƏZDİ Kİ, AVSTRİYAYA KÖÇƏRƏM"

Leyla Berndin valideynləri ilə təsadüfi tanışlıqlarından da danışdı: "Görüşmək üçün danışanda Bernd dedi ki, bizə gəl. Mən isə qəribə qarşıladım və dedim başqa yerdə görüşək. Amma o dedi ki, evdə şənlik keçiririk, sənin dostların və bacım da orada olacaq. Mən də çox adam olacağına görə razılaşdım. Gün boyu çox gözəl oyunlar oynadıq, əyləncəli zaman keçirdik. Birdən qapının zəngi çalındı və Berndin atası, anası, həmçinin əmisi içəriyə daxil oldular. Onlar qızlarını görmək üçün teatrdan sonra Berndin evinə gəlmişdilər. Mən şoka düşmüşdüm. Onlar oradakı hər kəsi tanıyırdılar, yalnız mən xaric. Sonra onlarla daha yaxından tanış oldum. Bizi səhər yeməyinə çağırdılar. Onlar çox xoşuma gəldilər. Xatırlayıram ki, gələcək barədə planlarımı soruşmuşdular. Mən də demişdim ki, dekabrda Azərbaycana qayıdacağam və orada iş axtaracağam. O zamanlar ağlıma da gəlməzdi ki, Avstriyaya köçərəm".

**Leyla:** *Məndə Azərbaycan yeməklərinə aid balaca kitabça var idi. Onu Berndə göstərdim. Bəyəndi və dedi ki, o zaman hər gün bu yeməklərdən mənim üçün bişir. Bəyəndiyi yeməklərdən özü də hazırlayır. Badımcan dolması, kükü, kişmiş və ərikli plov bişirir.*

Bernd deyir ki, valideynləri gördükləri andan Leylanı çox bəyəniblər: "Valideynlərim çox tolerant insanlardırlar. Onlar üçün seçəcəyim qızın milləti önəmli deyildi. Əsas mənim bəyənməyim və sevməyim idi".

## "İSTƏYİRDİ HARADA YAŞADIĞIMI ÖYRƏNSİN"

Leylanın ailəsi də Berndi yaxşı qarsalayıb: "Xəstəxanada olanda valideynlərim yanımda ola bilmirdilər. Mən də onları sakitləşdirirdim ki, xəstəxanada tək deyiləm. Onlara deyirdim ki, dostum yanıma gəlir və mənim üçün hər şey edir. Valideynlərim ona çox minnətdar idilər. Həmin il dekabrın sonu Bakıya qayıtdım. Mənə dedi ki, sənin doğum günündə Bakıya gələcəyəm. İstəyirdi harada yaşadığımı öyrənsin. Yanvarda Bakıya gəldi. Ailəm onu çox yaxşı qarşıladı".

## "İNSANLAR ƏNƏNƏLƏRİNƏ SADİQDİRLƏR"

Bernd tanışlıq üçün Bakıya gələrkən əvvəlcə çox qorxub, çünki Azərbaycana ilk gəlişi olub: "Azərbaycanı görməmişdik. Sadəcə xəritədə belə bir balaca ölkənin olduğunu bilirdik. Mən siyasətlə çox maraqlanıram. Bu səbəbdən Qarabağ münaqişəsindən xəbərim var idi. Bakını gördükdən sonra onun böyük şəhər, meqapolis olduğunu başa düşdüm. Azərbaycanda insanlar ənənələrinə sadiqdirlər. Bu da mənim çox xoşuma gəlir. Bura Avropa ilə Şərqin qarışığıdır. Yeməklərinizdən plov və kababı çox bəyəndim. Burada ilk dəfə mənə maraqlı gələn tərəvəzlərin doğranaraq servis edilməsi oldu".

## "TOYUMUZ ÇOX GÖZƏL KEÇMİŞDİ"

Leyla deyir ki, toydan öncə ailələr arasında tanışlıq olmayıb: "Çünki hər şey çox tez baş verdi. Yanvarda Bernd valideynlərimlə tanış oldu. Fevralda Avstriyaya qayıtdıqda mənə evlənmək istədiyini bildirdi. Amma dedi ki, toy üçün 1-2 il gözləmək istəmirəm. İstəyirəm tez ailə quraq. Apreldə Azərbaycandakı toyumuz oldu. Berndin valideynləri, bacısı və qardaşı toydan əvvəl bir neçə günlük Bakıya gəldilər. Toyumuz çox gözəl keçmişdi".

Bernd bizim toyların onun üçün çox fərqli olduğunu deyir: "Toyda hər şey çox qeyri-adi idi. Musiqiçilər gəlinin evinə gəlirlər. Bu, çox qəribədir. Həmçinin toyda qonaqlar hədsiz çox olur. Avstriyada toyda 80-100 nəfər olduqda bu, çox böyük məclis hesab edilir. 150 nəfər heç olmur. Bəy və gəlinin insanlardan ayrı, yuxarı başda kürsüdə oturması da qəribə gəlmişdi. Avstriyada bəy və gəlin qonaqlarla bərabər əyləşir".

## "BƏZƏN AZƏRBAYCANA KÖÇMƏK İSTƏYİRƏM"

Leyla deyir ki, xeyli vaxtdır Avstriyada yaşasa da, Azərbaycan üçün çox darıxır. Hətta arada köçüb Bakıda yaşamaq istəyir: "Toyumuzdan sonra hər il Azərbaycana səyahət edirdik. Yalnız pandemiya dövründə iki il gələ bilmədik. Bakı, anam, bacılarım, onların övladları, dostlarım, yaşadığımız küçələr, yeməklər və təndir çörəyi üçün çox darıxıram. Avstriyada ilk vaxtlar hər şey mənə çox maraqlı gəlirdi. Çünki hər şeyimiz fərqlidir. Alışdım, öyrəndim. Amma hələ də qəribə gələn məsələlər var. Arada deyirəm ki, ildə 2-3 ay burada soyuq olduqda Azərbaycana getmək yaxşı olardı. Təqaüdə çıxanda 1-2 il Azərbaycanda yaşamaq da ağlımdan keçir".

## AVSTRİYALININ ŞƏKİ VƏ QOBUSTAN MACƏRALARI

Bernd də Azərbaycana səfərlərindən bəhs edir: "Biz Azərbaycana səfər edəndə həmişə 4-5 günlük gəlirik. Bu, çox azdır, bu müddət ancaq yaxınlarımızı görməyə sərf olunur. Mən istəyərdim müxtəlif yerləri gəzim, amma yoldaşım ailəsi ilə qalmaq istədiyi üçün biz Bakıdan kənara çıxmırdıq. Amma bir dəfə bir neçə günlük Şəkiyə getmişdik. Bir də qayınatam, yoldaşım və böyük oğlumuzla Qobustanda olmuşuq. Qobustana ekskursiyamız çox xoşuma gəlmişdi. Leyla istəyir ki, bir dəfə də nə vaxtsa Gəncəyə gedək. Uşaqlar Bakıya gələndə bulvar xoşlarına gəlir, qutabı, təndir çörəyini bəyənirlər".

## BADIMCAN DOLMASI, KÜKÜ, KİŞMİŞ VƏ ƏRİKLİ PLOV

Leylanın sözlərinə görə, Bernd evləndikləri ilk gündən Azərbaycan mətbəxi ilə maraqlanır, hətta yeməklərimizdən hazırlayır da: "Məndə Azərbaycan yeməklərinə aid balaca kitabça var idi. Onu Berndə göstərdim. Bəyəndi və dedi "o zaman hər gün bu yeməklərdən mənim üçün bişir". Amma Azərbaycan yeməklərinə çox da alışa bilmir. Çünki bizim yeməklər yağlıdır, bir az ağırdır. Bəyəndiyi yeməklərdən özü də hazırlayır. Badımcan dolması, kükü, kişmiş və ərikli plov bişirir. Plovu bir az asiyalılar kimi hazırlayır. Bakıda qutabı da çox bəyənmişdi. Düzü, hələ bişirməmişik. Amma bəlkə gələcəkdə alındı".





## "BERND YEMƏK BİŞİRMƏYİ ÇOX SEVİR"

Bu ailənin sosial şəbəkələrdə yayılan videolarında daha çox Berndin aşpazlığını görürük. Leyla deyir ki, bəzi insanlar onu aşpaz zənn edir, amma həyat yoldaşı sadəcə həvəskardır: "Bernd yemək bişirməyi çox sevir. Çox vaxt evdə yeməyi Bernd və oğlumuz Teodor bişirir. Pandemiyadan sonra Bernd daha çox evdə olurdu, mən də o zamanlar ikinci oğlumuz Dominikə hamilə idim. Bu səbəbdən yeməkləri Bernd hazırlayırdı. İşini dəyişdikdən sonra evə daha tez gəlir və boş vaxtı qaldığı üçün yeməkləri bişirir. Amma 12 il Bernd yalnız həftə sonları mətbəxdə olurdu, qalan günlərdə yeməkləri mən hazırlayırdım".

## AVSTRİYALI QOHUMLARLA NOVRUZ BAYRAMI

Leylanın sözlərinə görə, evlərində həmişə Azərbaycan ənənələri qorunur: "Bayramlardan Yeni il və Novruzu qeyd edirik. Çərşənbələr və Novruz bayramında milli Azərbaycan mahnıları qoşuruq. Novruz bayramını elə evləndiyimiz ilk ildən keçiririk. İlk illər daha kiçik şəkildə olurdu. İllər keçdikcə daha təntənəli olmağa başladı. Son illər Novruz bayramı günü Berndin anası, bacısı, qardaşı da bizə gəlir. Balaca tonqal qalayırıq. Buraya köhnə Azərbaycan mahnılarından ibarət val gətirmişəm. Bernd çox yaxşı qarşılayır, musiqilərimizi bəyənir, amma rəqs etmir".

Leyla Berndin Azərbaycanda çox danışılan paxlava videosundan da bəhs edir: "Əvvəllər mən bişirəndə Bernd kömək etməsə də, paxlava çox xoşuna gəlirdi. Pandemiya vaxtı hamilə olduqda paxlava xəmirini yaymaqda çətinlik çəkirdim. Mənə kömək etmək istədi və gördüm ki, məndən də yaxşı, daha nazik xəmir yayır. Bundan sonra həmişə paxlava bişirəndə xəmiri Bernd yaymağa başladı. Son illər isə tamamilə özü bişirir".

Bernd deyir ki, paxlavanı bişirməyi sevdiyi qədər, yeməyi də sevir: "Bütün Novruz şirniyyatlarını sevirəm, şəkərbura, kətə, badamburanı bəyənirəm. Paxlava ilə çay çox əla gedir. Leyla ilə ailə qurduqdan sonra çay içməyə başlamışam (gülür). Lakin şorqoğalından xoşum gəlmir. Leyla isə çox sevir. Hər dəfə deyir bişirək, mən razılaşmıram. Övladlarımız da sevmirlər deyə, bişirmirik".

## HƏM DOSTDUR, HƏM HƏYAT YOLDAŞI

Sonda Leyla 15 illik ailə həyatlarından danışdı və gənclərə tövsiyələrini verdi: "Bernd çox mülayim, mehriban və dürüstdür, çox yaxşı dostdur. Münasibətlərdə əsas olan hörmətdir. Düzdür, hər şey sevgidən başlayır. Amma zaman keçdikcə sevgi fərqli bir hissə çevrilir. Bu səbəbdən mütləq hörmət olmalıdır".

Bernd isə Leyla ilə bir-birilərinin yarısı olduqlarını düşünür: "Leyla çox mülayim xanımdır. Biz bir-birimizi tamamlayırıq. Müxtəlif maraq dairələrinə sahibik, amma çalışırıq ki, birlikdə məşğuliyyətlər tapaq. Daim yeni nələrsə etməyə çalışırıq. Həmişə mülayim olun, bir-birinizlə mehriban davranın, güzəştə gedin, balaca məsələləri böyüdüb problem etməyin".

# UCUZLAŞACAQ, YOXSA UCUZLAŞMAYACAQ?



**Azərbaycanla Türkiyə arasında gəlirlərə görə ikiqat vergitutmanın ləğvi ilə bağlı gözləntilər heç də birmənalı deyil. Ekspertlərin bir qismi qardaş ölkədən idxal olunan məhsulların ucuzlaşacağını bildirsə də, digər qisim fərqli düşünür.**

SEVİNC ABBASOVA

Məlum olduğu kimi, Azərbaycanla Türkiyə arasında gəlirlərə görə ikiqat vergitutma ləğv edilir. Artıq bununla bağlı müvafiq sənəd qüvvəyə minib. Proqnozlara görə, iki ölkə arasında əldə olunan razılaşma Türkiyədən Azərbaycana idxal olunan məhsulların qiymətində ucuzlaşmaya səbəb olacaq.

Qeyd edək ki, Türkiyə Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri hesab edilir. 2023-cü ildə Türkiyə Azərbaycana ən çox idxalın həyata keçirildiyi üç ölkədən biri olub. Türkiyədən illik idxalımızın həcmi iki milyard 291 milyon dollardır. 2023-cu ildə Türkiyə ilə Azərbaycan arasında ümumi ticarət dövriyyəsi 30 faiz artaraq 7.6 milyard dollara çatıb. Gələcək hədəf ticarət dövriyyəsini 15 milyard dollara çatdırmaqdır.

Maraqlıdır, Azərbaycanla Türkiyə arasında gəlirlərə görə ikiqat vergitutmanın ləğvi konkret olaraq hansı sahələrə təsir göstərəcək? Bu yenilik yerli bazarlarda Türkiyədən idxal olunan malların satışını daha da artıra bilərmi? Bu addım qiymətlərin ucuzlaşması ilə nəticələnəcəksə, "online" ticarətə təsiri necə olacaq?

### AZƏRBAYCAN MƏHSULLARININ RƏQABƏT QABİLİYYƏTİ ARTACAQ

İqtisadçı Fuad İbrahimov hesab edir ki, ikiqat vergitutmanın aradan qaldırılması haqqında müqavilələr beynəlxalq iqtisadi əlaqələrin inkişafında xüsusi rola malikdir. Onun sözlərinə görə, yeni dəyişiklik Türkiyə ilə Azərbaycan arasında ticarət əlaqələrinin daha da genişlənməsinə imkan yaradacaq: "Bu gün Türkiyə Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biridir. İki ölkənin rəhbər şəxsləri bu münasibətlərin daha da inkişaf etdirilməsinə çalışırlar. Bununla bağlı müvafiq addımlar atılır. İkiqat verğitutmanın ləğvi də bu istiqamətdə atılan addımlardan biridir. Bu yenilik Türkiyədən idxal olunan malların yerli bazarlarda satışını artırmaqla paralel, həm də Azərbaycan məhsullarının Türkiyə bazarında rəqabət qabiliyyətini daha da artıracaq".



Fuad İbrahimov

### "UCUZLAŞMANI DAHA ÇOX TEKSTİL BAZARINDA GÖZLƏYİRİK"

İqtisadçı bildirib ki, bu yenilik Türkiyədən Azərbaycana idxal edilən məhsulların xərcini və qiymətini azalda bilər: "Azərbaycan Türkiyədən daha çox qida, tekstil məhsulları, xüsusən də geyim idxal edir. Bizdə tekstil bazarında hazırda inhisarçılıq halı mövcud deyil. Bazar olduqca liberallaşmış vəziyyətdədir və sağlam rəqabət olduğundan kifayət qədər də ucuz tekstil məhsulu var. Təbii ki, istənilən vergidən azadolma sağlam bazarda mütləq şəkildə qiymətin ucuzlaşmasına təsir edir. Çünki məhsula çəkilən xərc azaldığından sahibkar rəqabətli bazarda mövqeyini qorumaq üçün istər-istəməz idxal etdiyi məhsulu daha ucuz qiymətə təklif edəcək. Yəni iqtisadi baxımdan xərcin azalması qiymətlərin düşməsi ilə müşahidə olunmalıdır. Biz bu istiqamətdə ucuzlaşmanı daha çox tekstil bazarında gözləyirik".

## YERLİ İSTEHSALÇILARIN İŞİ ÇƏTİNLƏŞƏCƏK

F.İbrahimov onu da vurğulayıb ki, yerli istehsalçılar Türkiyədən idxal olunan məhsullarla rəqabət aparmağa hazır olmalıdırlar: "Gələcəkdə tekstil sahəsində yerli istehsalı genişləndirmək istəyiriksə, bazarı qorumalıyıq. Çünki bazarda onsuz da ucuz məhsullar kifayət qədərdir. Bu məhsullar daha da artacaqsa, yerli istehsalçıların işi çətin olacaq".

### AZƏRBAYCANLI REZİDENTLƏRİN XƏRCİ AZALACAQ



Xalid Kərimli

İqtisadçı Xalid Kərimli isə bildirib ki, əslində sözügedən razılaşmanın predmeti tamamilə başqadır. Onun sözlərinə görə, bu yenilik daha çox Türkiyədə fəaliyyət göstərən azərbaycanlı rezidentlərin xərcini azaldacaq: "Azərbaycanla Türkiyə arasında gəlirlərə görə ikiqat vergitutmanın ləğv edilməsinin mahiyyəti ondan ibarətdir ki, azərbaycanlı rezidentlər Türkiyədə fəaliyyət göstərirsə, Azərbaycanda və Türkiyədə vergiyə cəlb olunur. Azərbaycanlı rezident Türkiyədə vergiyə cəlb olunduğu zaman verginin məbləğinə dair Azərbaycana sənəd təqdim edir. Həmin sənəd əsasında eyni vergiyə Azərbaycanda cəlb edilmir. Yəni bu qərar nə idxal olunan məhsulların qiymətinə, nə də "online" ticarətə hansısa bir formada ciddi təsir etməyəcək. Onsuz da "online" ticarət vasitəsilə 300 dollara qədər limit həddində ölkəyə idxal olunan məhsullar heç bir rüsuma cəlb olunmur. Bu Türkiyədən alınan mallara da aiddir. Amma sahibkarlar ölkəyə idxal etdikləri məhsullara görə 35-36 faizə qədər vergi ödəyirlər. Yeni qərarın da buna heç bir təsiri yoxdur. Sahibkarlar bundan sonra da eyni qaydada vergilərini ödəyəcəklər".

## "MAĞAZALARDA QİSMƏN HƏRƏKƏTLİLİK YAŞANA BİLƏR"

Marketoloq Pərviz Əzimovun fikrincə, ikiqat vergitutmanın ləğvi yalnız Bakıdakı mağazaların fəaliyyətində qismən hərəkətlilik yarada bilər: "Əslində bu yeniliyin bazarlara ciddi təsiri gözlənilmir. Azərbaycanda olan qiymətlərlə Türkiyədəki qiymətlər arasında fərq azalsa belə, insanlar yenə də "onlayn" ticarətə üstünlük verəcəklər. Çünki ölkəmizə elektron ticarət vasitəsilə gələn məhsulların təxminən 40-45 faizə yaxını bölgələrin payına düşür. Səbəb isə bölgələrdə tələbata uyğun məhsul çeşidinin ya az, ya da ümumiyyətlə olmamasıdır. Bölgələr yenə də "online" ticarət etməyə məcbur qalacaqlar. Amma Türkiyə ilə Azərbaycan bazarında qiymət fərqi azalarsa, bu paytaxtdakı mağazaların fəaliyyətində qismən hərəkətlilik yarada bilər".

Marketoloq vurğulayıb ki, ölkə vətəndaşlarının "online" ticarətə xərclədiyi vəsaitin daxili dövriyyəsinə nail olmaq üçün yerli şirkətlər ciddi addımlar atmalıdırlar: "Biz hazırda elektron idxalla məşğuluq. Ölkə daxilində elektron ticarəti inkişaf etdirmək mümkündür. Bu məqsədlə yerli şirkətlər müştərilər üçün kifayət qədər yaxşı imkanlar yaratmağa çalışmalıdırlar. Ən böyük problem karqo ilə bağlıdır. Sayt yaradıb məhsul satmaq çox asandır, lakin onu müştəriyə çatdırmaq olduqca çətindir. Bu problemləri həll etsək, "online" ticarətə yönəldilən məbləğin daxili dövriyyəsinə nail ola bilərik".



Pərviz Əzimov

FERMERLƏR MÖVCUD QİYMƏTLƏRDƏN NARAZIDIRLAR

# ÇİYƏLƏK BOL, QİYMƏT UCUZ



Hazırda bazarlarda çiyələyin qiyməti xeyli ucuzlaşıb. Fermerlər bunu Rusiya bazarında alıcılıq səviyyəsinin zəifləməsi ilə əlaqələndirirlər. Ekspertlər isə çıxış yolunu alternativ bazarlar tapmaqda görürlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Çiyələk bu il çox tez ucuzlaşıb. Mövsümün əvvəlindən üç manata satılan çiyələyin qiyməti iki həftə keçməmiş bir manata düşüb. Cəlilabadda çiyələyin qiyməti dörd dəfə ucuzlaşıb. Fermerlər deyirlər ki, hazırda toplanan məhsul çeşidinə görə xarici bazara bir manat, daxili bazar üçün isə 80 qəpiyə satılır. Lakin qazanc əldə etmək üçün çiyələyin hər kiloqramını azı iki manata satmalıdırlar. Bu ucuzlaşma fonunda məhsuldarlıq hansı səviyyədədir? Gələcəkdə çiyələyin qiymətində artım baş verə bilərmi?

### "SATIŞIMIZ ÇOX ZƏİFDİR"

Fermer Rafət Abbasovun sözlərinə görə, bu il hava şəraiti daha mülayim olduğu üçün məhsul həddindən artıq boldur: "Son 2-3 ildir ki, məhsul cəhətdən heç bir problem yaşamırıq. Bu da istilərin daha tez düşməsi ilə bağlıdır. Ancaq bazar qiymətləri bizi qane etmir. Daxili bazarımıza məhsulu göndəririk, 70 qəpikdən alırlar. Bu, heç sahədə işləyən fəhlənin pulu deyil. İstər daxili, istərsə də xarici bazarda satışımız çox zəifdir. Əvvəl çiyələk az əkilirdi. Daxili bazarda satış normal idi. İndi isə kütləvi hal alıb. Havaların dəyişməsinin təsiri də yoxdur. Çünki çiyələk istixanada yetişdirilir, yağış tutmur. Açıq sahələrdə qaldıqda isə ziyan dəyir. Çiyələk tez xarab olan giləmeyvədir, tağında qaldıqda çürüyür. Yağışlı havalarda məhsulun 80 faizi atılır, satışa çıxarılmır".

### HƏR HEKTARA BİR TON

R.Abbasov qeyd etdi ki, məhsulu xarici bazara çıxarmaq üçün bol əkirlər, daxili bazarın bu qədər məhsula ehtiyacı yoxdur: "Xarici bazarda da alıcı qıtdır. Bu səbəbdən vəziyyətimiz ağırdır. Bir hektar çiyələk sahəsindən gün ərzində minimum bir tona yaxın çiyələk toplanır. Rayonlarımızda 1000 hektara yaxın çiyələk sahələri var. Bu qədər məhsulu daxili bazara çıxarmaq mümkün deyil. Hazırda may ayıdır. Bu ayda çiyələyi sadəcə yemək üçün bir-iki kiloqram alırlar. Amma iyun-iyul aylarında mürəbbə və cem bişirmək üçün daha çox alırlar. Həmin vaxt məhsul satılsa da, qiymət yenə də ucuz olur".



## 30 KİLOQRAM DA SATILMIR

Fermer bildirdi ki, Rusiyada alıcılıq qüvvəsi zəiflədiyi üçün ödənişlər də ləngiyir: "Son 3-4 ildə əsasən Rusiya, Qazaxıstan bazarlarına satış həyata keçirirdik. İndi isə Rusiya bazarında çiyələk satışı həddindən artıq zəifdir. Göndərilən çiyələklərin ödənişi hələ gəlib çıxmayıb. Bu il çiyələkdən fayda götürən olmayacaq. Çox adam ziyanla çıxacaq. Çünki çiyələk əsasən bu vaxtlar baha satılırdı. Keçən il Rusiya bazarına 3-3,5 manatdan göndərirdik, bu il isə 90 qəpik-1 manatdır. Bu, məhsulun maya dəyəri də etmir. Moskva bazarlarında əvvəllər gündə üç ton çiyələk satılırdı. İndi isə heç 30 kiloqram da satılmır".



Pərviz Heydərov

### ATILAN MƏHSULUN MİQDARI ARTIR

İqtisadçı Pərviz Heydərovun sözlərinə görə, hər il fermerlərin məhsulunun bir hissəsi məhv olur: "Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra kənd təsərrüfatı məhsullarımızın Rusiya bazarlarına çıxış imkanları əvvəlki kimi deyil. Bunu bir ildən çoxdur görürük. Belə vəziyyətdə fermer ya digər bazarlara çıxış üçün yol tapmalıdır, ya daxili bazarda maya dəyərindən aşağı qiymətə satmalıdır. Ən pis halda isə məhsulunun məhv olmasını seyr etməlidir. Statistika da məhsulun məhv olub atılmasının ildən-ilə artdığını göstərir".



### ALTERNATİV BAZARLAR TAPILMALIDIR

P.Heydərov bildirdi ki, alternativ bazarlar taparaq fermerlərimizi çətinlikdən xilas edə bilərik: "Bu cür vəziyyətin əsas səbəbi bir bazardan asılı olmağımızdır. Vaxtında alternativ bazarlar axtarıb tapmalı idik. Türkiyə, Yaxın Şərq, ərəb ölkələrini düşünmək olardı. Onlar bu məhsulların satışı üçün gəlirlilik baxımından daha uyğun hesab olunur. Amma indi də yeni bazarlar axtarmaq gec deyil".

### DAXİLİ BAZARIMIZ İDXALDAN ASILI OLACAQ

İqtisadçının fikrincə, qarşıdakı günlərdə çiyələyin qiymətinin ucuzlaşması davam edəcək. Amma bu, fermerlər, ən sonda isə ölkəmiz üçün müsbət nəticələnməyəcək: "Belə davam edərsə, fermerlər növbəti illərdə bu məhsulun istehsalı ilə məşğul olmaq istəməyəcəklər. Çünki daxili bazarda satmaqla heç bir gəlir əldə etmirlər. Nəticədə daxili bazarımız idxaldan asılı olacaq. Bu zaman da hibrid, qatqılı məhsullardan asılı hala düşəcəyik. Qiymət tələb və təklif əsasında formalaşır. Əgər tələb indiki səviyyədə qalmağa davam edərsə, qiymətlər elə bu səviyyədə qalacaq".

Üç əsrin qəzeti Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, İlhamə Əbülfət, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1051
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# CAVANLAR AZALIR, QOCALAR ÇOXALIR

**Hesablamalara görə, hazırda mövcud olan dövlətlərin dörddə üçündə 2050-ci ilə qədər əhalinin sayı azalacaq. Azərbaycanda da əhalinin hər 1000 nəfərinə düşən doğulan körpə sayında azalma müşahidə edilir. Gələcəkdə yaşlı əhalinin çoxluq təşkil etdiyi ölkələrdə vergini kim ödəyəcək? Yaşlılar pensiya ala biləcəklərmi?**



**AYGÜN ƏZİZ**
aygunaziz@kaspi.az




Azərbaycanda əhalinin hər 1000 nəfərinə düşən doğulan körpə sayı azalır. Bu ilin yanvar ayında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 8389 doğulan körpə qeydə alınıb. Bununla da ötən ilin müvafiq ayı ilə müqayisədə əhalinin hər 1000 nəfərinə düşən doğulan uşaq sayı azalaraq 11,5-dən 9,7-yə düşüb.

Məlumdur ki, təkcə Azərbaycan deyil, dünyanın bir çox ölkələrində bu proses gedir. Doğulan uşaqlar azalır, yaşlıların sayı çoxalır. Maraqlıdır, bu proses dünyanı hansı istiqamətə aparır? Doğulan körpə sayının azalması həqiqətən narahatedici faktordur, yoxsa buna təbii proses kimi yanaşmalıyıq?

### ÖLKƏ ƏHALİSİ ƏSRİN SONUNA QƏDƏR AZALACAQ

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Uşaq problemləri şöbəsinin müdir müavini Günel Nağdəliyeva da "Kaspi" qəzetinə təsdiqləyir ki, son illər bir çox ölkələrdə doğuş nisbəti və ya bir qadının dünyaya gətirdiyi orta uşaq sayı aşağı düşür: "Mütəxəssislərin fikrincə, doğum nisbətində azalma tendensiyası davam edərsə, demək olar ki, bütün ölkələrin əhalisi əsrin sonuna qədər azala bilər. Bu dəyişiklik müasir dövrdə qadınların təhsilə və iş həyatına üz tutması, habelə ailə planlaması ilə bağlı məlumatların daha əlçatan olması ilə də səciyyələndirilir. Bununla yanaşı, dünyanı bürüyən müxtəlif yoluxucu xəstəliklər nəticəsində ölüm hallarının artması, boşanma sayında müşahidə olunan çoxalmalar, nikahların isə əvvəlki illərlə müqayisədə azalması təbii artımın qarşısını alan başlıca faktorlardandır".

Qurum rəsmisi deyir ki, ölkəmizdə ən yüksək doğum göstəricisi 1990-cı ildə qeydə alınıb: "Belə ki, həmin ildə diri doğulan körpələrin sayı 182 989 nəfər olub. 2022-ci ilə dair statistik göstəricilərə baxdıqda, 2021-ci illə müqayisədə müəyyən artım müşahidə edilir. Belə ki, Azərbaycanda 2021-ci ildə 112 284, 2022-ci ildə isə 122 846 nəfər körpə doğulub".

ABŞ-nin Vaşinqton Universitetinin tədqiqatçıları müəyyən ediblər ki, ölkələrin dörddə üçündə 2050-ci ilə qədər əhalinin sayı azalacaq. Həmçinin Ümumdünya Səhiyyə Təşkilatının üzvləri "The Lancet"də dərc olunmuş müstəqil şərhlərində doğulan uşaq sayının azalmasının müsbət və mənfi cəhətlərini araşdırıblar. Mütəxəssislər deyirlər ki, doğulan uşaq sayının azalması əhalinin artması, ətraf mühit, ərzaq təhlükəsizliyi, sağlamlıq, iqlim dəyişikliyi və biomüxtəliflik baxımından fayda gətirə bilər, lakin səhiyyə, pensiya, sosial təminat, işçi qüvvəsi və geosiyasətə mənfi təsir göstərəcək.

### NƏ ÜÇÜN İNSANLAR DÜNYAYA UŞAQ GƏTİRMƏKDƏN ÇƏKİNİRLƏR?

Dünyanı silkələyən bu vəziyyətin səbəblərinə gəldikdə isə iqtisadi vəziyyət, xəstəliklər, uşaq yetişdirmənin tələb etdiyi xərclər, doğuş planlamasının əlçatan olması və qadınların maarifləmməsi göstərilir.

Bu vəziyyətdən narahat olmayan, əhalinin sayının azalmasını ətraf mühit üçün müsbət hal kimi qiymətləndirənlər də az deyil. Çünki düşünürlər ki, dünya əhalisi azaldıqda, əhali karbon emissiyalarını azaldacaq və meşə sahələri daha az məhv olacaq. Lakin təbii olaraq, əhalinin strukturunun dəyişməsi və yaşlıların sayının artmasının mənfi təsirləri daha çoxdur. Tədqiqatlar əhalinin strukturu ilə bağlı təəccüblü proqnozları ortaya qoyur.




## 401 MİLYON UŞAQ, 866 MİLYON YAŞLI

Beş yaşa qədər dünya əhalisi 2017-ci ildəki 681 milyondan 2100-cü ildə 401 milyona, 80 yaşdan yuxarı dünya əhalisi 2017-ci ildəki 141 milyondan 2100-cü ildə 866 milyona yüksələcək. Tədqiqatçılar 2100-cü ilə qədər ölkələrin 97 faizində ümumi doğuş nisbətinin aşağı düşəcəyini proqnozlaşdırırlar. Məsələn, 2021-ci ildə bir qadına düşən doğuş nisbəti 2,23 olduğu halda, 2050-ci ildə bu rəqəmin 1,68-ə, 2100-cü ildə isə 1,57-yə düşəcəyi deyilir.

### "GƏNCLƏR NƏSİL ARTIRMAQ, MƏSULİYYƏT, ÖHDƏLİK GÖTÜRMƏK İSTƏMİRLƏR"

Azərbaycandakı əhalinin doğum səviyyəsi ilə bağlı açıqlanan statistika da onu göstərir ki, Avropa ölkələrindəki təklik, yalnızlıq hissi bizə də sirayət edir. Psixoloq Nizami Orucov da təsdiqləyir ki, son vaxtlar ailə dəyərlərini yeniləri əvəzləyir: "Məhz təklik səbəbindən inkişaf etmiş ölkələrdə intiharların sayı artır. Təəssüf ki, bizim də ailə modelimiz ona doğru gedir. Bu, hedonizm fəlsəfəsidir. Hedonizm insanın öz hərəkətlərini ona həzz verəcək bir şəkildə planlaşdırması gərəkdiyini, həmişə həzz verənə yönəlmənin ən uyğun davranış şəkli olduğunu müdafiə edən fəlsəfi cərəyandır".

Psixoloq deyir ki, bu gün gənclərin ailə qurmamasının və övlad sahibi olmamasının da kökündə hedonist düşüncə dayanır: "Gənclər nəsil artırmaq, məsuliyyət, öhdəlik götürmək istəmirlər. İnsan həyata zövq mənbəyi kimi baxmağa çalışır. Orada nə ər, nə qadın, nə uşaqlar, nə ailə rol oynayır. Bundan əlavə, ikinci əsas məsələ gənclərin gözünün evlilikdən qorxmasıdır. Ya öz ana-atalarının münasibətlərinə baxıb evlilikdən iyrəniblər, ya real həyatda ətrafında baş verən hadisələrdən qorxublar. Xəyanət, aldadılma, uğursuz seçim, yaxud da "evlənsəm bədbəxt olaram" qorxusu onları bu qərardan uzaqlaşdırır. Müasir həyatın informasiya bolluğu bizim həddindən artıq tərəddüd keçirməyimizə səbəb olur".

Mütəxəssislər 21-ci əsrdə dünyanın sarsıdıcı sosial dəyişikliklərlə rastlaşacağını vurğulayır. Maraqlıdır, yaşlıların çoxluq təşkil etdiyi dünya necə ola bilər? Professorlar aşağıdakı suallar qarşısında narahatdırlar:

Yaşlı əhalinin çoxluq təşkil etdiyi ölkələrdə vergini kim ödəyəcək? Yaşlılara qayğı və sağlamlıq xidmətləri necə maliyyələşdiriləcək? Onların baxımını kim həyata keçirəcək? Bu baş versə, insanlar təqaüd ala biləcəklərmi?

Bu sualların dəqiq cavabını zaman verəcək.













# YAXIN ŞƏRQİN MANHETTENİ

Müasir Əbu-Dabi dünyanın hər yerindən olan turistlər üçün cəlbedicidir. Diqqəti daha çox uca göydələnlər, yamyaşıl bağlar, məscidlər, fəvvarələr, gecələr bərq vuran işıqlarının yaratdığı heyrətamiz gözəllik və unikal memarlıq cəlb edir.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Əbu-Dabi - səhranın üstündə yüksələn şəhərdir. Birləşmiş Ərəb Əmirliklərinin yeddi əmirliyindən biri və ölkənin biznes, siyasi, mədəni və turizm mərkəzidir. İnsan əli ilə materiklə birləşən çoxlu adaları dünyanın hər yerindən turistləri cəlb edir. Uca göydələnləri, yamyaşıl bağları, məscidləri, fəvvarələri, gecələr bərq vuran işıqlarının yaratdığı heyrətamiz gözəlliyi, zənginliyi və unikal memarlığına görə bir neçə qeyri-rəsmi adı da var: "Bağ şəhəri", "Əsl şərq nağılı", "Yaxın Şərqin Manhetteni" və hətta "qızardılmış Manhetten". Amma paytaxt şəhərin əfsanələrdən gələn bir adı da var: "Ceyran ölkəsi". Bu adla bağlı rəvayəti şəhərdə yerlilərin dilindən eşitdik: "Əbu-Dabi "Ceyran ölkəsi" kimi tərcümə olunan qeyri-rəsmi adını əfsanəyə borcludur. Şəhərin yerləşdiyi yerdə əvvəllər boş bir səhra var idi. Ceyranı qovarkən baş verən qəza ovçulara təmiz şirin su mənbəyi olan ərazini kəşf etməyə kömək edib. Sonradan orada şəhərə çevrilən bir qəsəbə meydana gəlib. 20-ci əsrin ortalarından isə aşkar edilmiş neft ehtiyatları sayəsində Əbu-Dabi dünya biznesinin, iqtisadiyyatının və turizminin əsas mərkəzlərindən birinə çevrilib".

### TƏZADLAR METROPOLU

Bu şəhərdə sürətlə inkişaf edən müasir həyat və Şərqin diqqətlə qorunub saxlanılan qədim ənənələri ahəngdar şəkildə birləşir. Müasir Əbu-Dabi parlaq göydələnlərin qədim sivilizasiyaların tarixi abidələri ilə yanaşı, mövcud olduğu təzadlar metropoludur. Burada dəbdəbə ilə zərif sadəlik, müasir memarlıqla qar kimi ağ minarələrin rəngi qarışıb. Paytaxt ənənə və tərəqqinin heyranedici qarışığını nümayiş etdirir.

Bu gün Əbu-Dabi azərbaycanlıların ən çox səyahət etdiyi yerlərdən biridir. Təyyarədən möhtəşəm mənzərə - qumlu səhra arasında yaşıllığın bolluğu şəhərə qonaq gələn hər bir turisti ilk baxışdan heyran edir. Əbu-Dabi hava limanına çatdıqdan sonra süni intellektin verdiyi imkandan yararlanaraq, heç bir sərhəd-gömrük xidmətçisi ilə qarşılaşmadan tor qişanın sürətli üz tanıma və skan prosedurundan keçir və əsl şərq nağılına qərq olursunuz...

### YAY AYLARINDA GƏLMƏYİN

Əbu-Dabini ziyarət etmək üçün ən yaxşı vaxt yaz və ya payızdır. "Yay aylarında gəlməyə cəhd etsəniz, istidən küçəyə belə çıxa bilməyəcəksiniz, sizə deyim... Yayda Əbu-Dabidə küçələrdə gəzən insanları görmək demək olar ki, mümkün deyil. Çimərliklər də bomboş olur və Fars körfəzinin suyunun temperaturu ən azı çöldəki qədər yüksək olur. İstidən qaçıb şəhərdəki çoxsaylı ticarət mərkəzlərindən birinə sığınmalı olursan", - deyə bizi hava limanından şəhərə aparan sürücü bildirir.

Şəhərdə ən çox yayılmış nəqliyyat vasitələri son dərəcə rahat və nizamlı ağ taksilərdir. Ölkə neftlə zəngin olsa da, taksi ilə daşınma "su qiyməti"nə deyil. Məsələn, hava limanından yaxın hotelə 40 AED (18-20 AZN) ödədik. Şəhərin ictimai nəqliyyat sistemi mükəmməl qurulub. Hava limanında pulsuz əldə edilən avtobus kartını yüklədikdən sonra şəhəri rahat gəzmək fürsəti yaranır.

Taksi sürücüləri əsasən pakistanlılardır. Ümumiyyətlə, şəhərin küçələrində, hotel və restoranlarda təmizlik, sərnişin daşıma işlərini və s. həyata keçirən hindistanlılar, pakistanlılar və Afrika ölkələrindən gələn miqrantlardır. BƏƏ onlara bu qəbil iş imkanları təklif edir. Ənənəvi geyimli ərəb kişilərini əsasən böyük "mall"arda dükanların sahibi kimi görmək olur. Qadınların əsas əyləncəsi isə dəbli dükanlarda vaxt keçirməkdir.



## DÜNYANIN 6 BÖYÜK MƏSCİDİNDƏN BİRİ



Əbu-Dabidə ailə ilə ziyarət etməli çoxlu attraksionlar, muzeylər, parklar və çimərliklər var.

Səyahət agentliklərinin turistlərə təklif etdiyi geniş çeşidli ekskursiyalar və marşrutlara səhra safariləri, qum təpələri arasında şam yeməyi, Fars körfəzi sularında kruizlər daxildir. Korniş Parkı, Ağ Qala, Prezident sarayı, Bədəvi həyatı haqqında ipucları verən Heritage Village və Qadın Əl İşləri Mərkəzini ziyarət edərkən ərəb mədəniyyətinin qorunduğunu müşahidə edirsən.

Şəhərdə mütləq görməli yerlərdən biri olan Şeyx Zayed məscidi də müasir memarlığın əsas nümunəsidir. BƏƏ-nin qurucusunun adını daşıyan məscid 40000 nəfəri qəbul edə biləcək qədər böyükdür. Dünyanın altı ən böyük məscidindən biridir. Dəbdəbəli interyerlər öz əzəməti ilə ziyarətçini heyran edir. Məscidin salonlarından birinə beş min kvadratmetrdən çox sahəni əhatə edən dünyanın ən böyük əl işi xalçası döşənib. Bu xalçanın iki il ərzində 1200 qadın tərəfindən toxunduğunu öyrənirəm. Şeyx Zayed Əbu-Dabidə yeganə məsciddir ki, bütün dindən olan insanların üzünə açıqdır. Məscidə ziyarətə gedərkən turistlərin əvvəlcədən bilməli olduğu əsas qayda geyimlə bağlıdır: ekskursiyada şort və ya mini paltar geyinmək qadağandır. Cümə səhərləri istisna olmaqla, məscid hər gün turistlərin üzünə açıqdır.

### DƏNİZ, ƏDVİYYATLAR VƏ BAHALI ƏTİR QOXUSU...

Söz yox ki, turistləri həmçinin BƏƏ-yə alış-veriş etmək imkanı cəlb edir. Əbu-Dabidə çoxlu şərq bazarları və butikləri var. Paytaxtda tekstil mağazaları məşhurdur, Hindistan yarımadasından və Cənub-Şərqi Asiyadan parçalar, dəbli və ucuz paltarlar satılır. Alış-veriş mərkəzlərində və butiklərdə bazarlıq etmək turistlərin cibinə uyğun deyil. Marketlərdə alış-veriş etmək nisbətən uyğun sayılır. Turistlər buradan əsasən xurma, ədviyyatlar, quru meyvələr və ekzotik suvenirlər alırlar. Yeri gəlmişkən, Birləşmiş Ərəb Əmirliklərində dəvə südü hələ də məşhurdur. Onu şəhərin supermarketlərindən almaq olur. Burada istənilən məşhur ətri tapmaq olur. Bundan əlavə, alıcının istəyi ilə yeni nəfis ətir yarana bilər - o, parfümeriya sexində istehsal olunacaq. Əbu-Dabidə isti, rütubətli havadan belə dəniz, ədviyyatlar və bahalı ətir qoxusu gəlir...

UŞAQLAR VƏ XANIMLAR ARASINDA POPULYARLAŞAN ZƏRƏRLİ VƏRDİŞ

# SAĞLAMLIĞIMIZA TƏHLÜKƏ YARADAN MARKETİNQ GEDİŞİ

Aparılan tədqiqatlar göstərir ki, bəzi elektron siqaretlərin tüstüsündə toksik maddələrin səviyyəsi siqaret qədər olur. Həmin zərərli maddələrin hüceyrə-daxili təsiri ola və onlar da xərçəng xəstəliyinə yol aça bilər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Hazırda dünyada 34 ölkədə qadağan olunan bu məhsul, Azərbaycanda demək olar ki, çiçəklənmə dövrünü yaşayır. Söhbət elektron siqaretlərdən gedir. Uşaq, böyük, qadın, kişi - istənilən insanın əlində bu kiçik, rəngli alətlərə rast gəlmək olur. Siqaret aludəçiliyinə son qoymaq və istifadəçilərin nikotinə olan həvəsini cilovlamaq məqsədi ilə bazara çıxarılan bu məhsulun siqaret qədər zərərli olduğu deyilir. Əgər belədirsə, biz nə üçün qadağan etmirik?

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycanda elektron siqaretin istifadəsinin qadağan olunmasını təklif edib. Millət vəkilinin sözlərinə görə, ölkəyə il ərzində təxminən üç milyona yaxın elektron siqaret idxal olunur.

Maraqlıdır, ildə üç milyonundan istifadə etdiyimiz bu məhsulun tərkibi nədən ibarətdir? Ən əsası, insan orqanizmində hansı fəsadları yaradır? Ümumiyyətlə, elektron siqaretlərin istifadəsi ilə bağlı qanunvericilik nə deyir?



Tofiq Musayev

### ELEKTRON SİQARETLƏR TÜTÜNÇƏKMƏNİ DƏSTƏKLƏYİR

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin İctimai sağlamlıq şöbəsinin müdiri Tofiq Musayev "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, elektron siqaret buxarının tərkibində tütün tüstüsündə olan təhlükəli kimyəvi maddələr var: "Bu alətin buxarı kiçik hissəciklərdən ibarətdir. O, tənəffüs yollarına dərindən nüfuz edir və dağıdıcı təsir göstərir. Həmçinin, ürək və ağciyər xəstəlikləri riskini artırır".

Mütəxəssisin sözlərinə görə, hazırkı tendensiyalar göstərir ki, hətta heç vaxt siqaret çəkməyənlər belə, bu məhsulların istifadəsinə başladıqda asanlıqla siqaret və digər tütün məmulatlarına keçirlər: "Tütünçəkmə kimi zərərli vərdişdən qurtulmaq istəyən insan elektron siqaret əvəzinə sağlam davranış variantlarını seçməlidir. ÜST də elektron siqaretlərin satışını məhdudlaşdırmağı tövsiyə edir. Çünki elektron siqaret istənilən halda tütünçəkməni dəstəkləyir, üstəlik onun tərkibindəki kimyəvi maddələr bəzi xəstəliklərin yaranmasına da zəmin yaradır".



### ELEKTRON SİQARETLƏR ƏNƏNƏVİ SİQARET QƏDƏR TƏHLÜKƏLİDİR?

Mütəxəs-sisin sözlərinə görə, aparılan tədqiqatlar göstərir ki, bəzi elektron siqaretlərin tüstüsündə toksik maddələrin səviyyəsi elə siqaret qədər olur: "Həmin zərərli maddələrin hüceyrədaxili təsiri ola və onlar da xərçəng xəstəliyinə yol aça bilər. Həmçinin eyni elektron siqaretdən şərikli istifadə infeksiya mənbəyi rolu oynaya, vərəmin yayılmasına səbəb ola bilər. Elektron siqaretlərin katricləri ilə əlaqədar da təhlükəli məlumatlar var. Bəzi uşaqlar bilmədən onu udaraq toksik təsirə məruz qalırlar".

### BƏS QANUNVERİCİLİK NƏ DEYİR?

"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunda qeyd olunub ki, tütün məmulatları tütün yarpağından və onun komponentlərindən hazırlanmış, tərkibində nikotin, aktiv alkaloid, o cümlədən, kanserogen maddələr olan və nikotinə aludəçilik yaradan məhsul hesab olunur.

Elektron siqaretlər də bu qanunun təsir dairəsində tütün məmulatlarına bərabər tutulur. Qurum rəsmisi bildirir ki, bu qanunun 6-cı maddəsinin 6.2.2-ci bəndində uşaqlarda və gənclərdə tütün istifadəsinə mənfi münasibət formalaşmasının, habelə onların tütün istifadəsi prosesinə cəlb edilməsinin yolverilməzliyinin qeydinə qalmaq qeyd olunub. Həmin qanunun 13-cü maddəsi yetkinlik yaşına çatmayanlara tütün məmulatlarının satışını və onların tütündən istifadə etməsini qadağan edir.

### HAZIRKI VƏZİYYƏTDƏN ÇIXIŞ YOLUNA GƏLDİKDƏ İSƏ...

Hazırkı vəziyyətdən çıxış yoluna gəldikdə isə, mütəxəssis vurğulayır ki, uşaq və yeniyetmələri tütün məmulatlarından qorumaq vacibdir: "Gənc nəsli marketlərdəki tütün məmulatları yerləşən rəflərin həvəsləndirici təsirindən qorumaq üçün pərakəndə satış yerlərində tütün məmulatlarının görünüşü tam qadağan edilməlidir. Həmçinin tütün məmulatlarının hər bir qutusunda şəkilli xəbərdarlıqlar mütləq şəkildə əks olunmalıdır".

## XANIMLAR VƏ UŞAQLAR ARASINDA DA YAYILACAQ

Siqaretin fəsadlarından danışarkən daha çox ağciyərə vurduğu zərərlər qabardılır. Bəs elektron siqaretlər necə?

Pulmonoloq Əsəd Beydullayev deyir ki, elektron siqaretlər ənənəvi siqaretlərdən də zərərli məhsuldur: "Düzdür, bunu bir marketinq gedişi olaraq təklif etdilər ki, ənənəvi siqaretin yerini alsın və tütün istifadəsini azaltsın. Amma təəssüf ki, belə deyil. Elektron siqaretlər özlüyündə daha zərərli hesab edilir. Bunun zərərlərindən danışdıqda, bəzi insanlar əsas gətirirlər ki, hələ elektron siqaretdən xərçəng tutan, ölən adam yoxdur, amma bu, səhv yanaşmadır. Elektron siqaretlər yeni satışa çıxdığı üçün onların zərərli tərəfləri hələ tam araşdırılmamışdı. İndi araşdırılır və nəticələri təhlükəli olduğu üçün müxtəlif ölkələrdə qadağan edilir".

Həkim pulmonoloq elektron siqaretlərin qadağan edilməsinin tərəfdarıdır: "Onlar hazırda zərərsiz görünür, bu səbəbdən də xanımlar və uşaqlar da istifadə edirlər. Belə davam etdikdə, gələcəkdə nikotin asılılığı xanımlar və uşaqlar arasında da yayılacaq. Bundan əlavə, son aparılan araşdırmalar sübut edir ki, uşaqlıqdan elektron siqaretlər istifadə edən insanlar sonradan siqaret aludəçiliyinə davam edirlər. İstənilən halda, nəfəsə çəkilən yad bir aerozol, əgər dərman deyilsə, çox təhlükəlidir və istifadəsi tövsiyə edilmir".



Əsəd Beydullayev

Xatırladaq ki, 1950-ci illərdə siqaretlərin də zərərsiz olması ilə bağlı təbliğat kampaniyaları aparılırdı. İndi isə hər bir siqaret qutusunun üzərində "sağlamlığınıza zərərlərlidir" yazısı rəsmi şəkildə qeyd olunur.

“MƏNƏM MƏN...” TAMAŞASI HAQQINDA DÜŞÜNCƏLƏR

# İLK DƏFƏ NƏSİMİNİN DƏRİSİ SOYULMADI...



Nəsimi burada sanki özü-özünü axtarır. İçindəki “olmaz” zəncirlərini qırıb, şairi üzə çıxarmağa çalışır. Dinə zidd gedən, özünə “həqq” deyən Nəsimi tapılmalı, boynu vurulmalıdır. Bu yolda Xeyir və Şər bir-biri ilə vuruşur.



XANIM AYDIN

İlk dəfə idi ki, Nəsimi Afətinə “vəsf zamanı deyil, Afət” demədi. İlk dəfə idi ki, Nəsiminin dərisi soyulmadı, əksinə, özü asdı, kəsdi. “Cismimi sər ta qədəm min gəz yararlar, ağrımaz”, - demədi. İlk dəfə idi ki, iki cahana sığmayan şair YUĞ-un balaca səhnəsində Həqqin nə olduğunu, kim olduğunu, necə və kimdə olduğunu bütün detalları ilə göstərdi. Söhbət İmadəddin Nəsimiyə həsr olunmuş İlqar Fəhminin eyni adlı pyesi əsasında Mehriban Ələkbərzadənin tamaşaya qoyduğu “Mənəm, mən...” tamaşasından gedir.

### “MƏNƏM, MƏN” DEMƏYƏ LAYİQ TAMAŞA

Birinci ondan başlayaq ki, “Mənəm, mən...” adlı bu tamaşa elə doğrudan da qürurla sinəsinə döyüb, başını uca tutub “mənəm, mən” deməyə tam layiqdir. YUĞ teatrının tamaşaçıları peşəkardırlar. Onları aldatmaq mümkün deyil. Səhnə də zalla o qədər həmahəngdir ki, sanki ikisi arasında heç bir sərhəd müəyyənləşməyib, az qala, aktyor tamaşaçı ilə göz-gözə, nəfəs-nəfəsə təmasda oynayır. Yox, oynamır. Yaşayır və yaşadır. Tamaşa boyu gərginlik, suallar və deyərdim ki, həm də qorxu içində davam edən süjet zənciri tam sona qədər insanın gözlərini qırpmadan, nəfəs almadan ona baxmağa sözün yaxşı mənasında məcbur edir.

### XEYİR VƏ ŞƏR BİR-BİRİ İLƏ VURUŞUR

Maraqlısı budur ki, Nəsimi tamaşada sanki özü-özünü axtarır. İçindəki “olmaz” zəncirlərini qırıb, şairi üzə çıxarmağa çalışır. Dinə zidd gedən, özünə “həqq” deyən Nəsimi tapılmalı, boynu vurulmalı, boğazına qurğuşun tökülməli, əlləri biləkdən kəsilməlidir. Bu yolda Xeyir və Şər bir-biri ilə vuruşur. Nəsimi qarşısındakı “Mənəm Nəsimi” deyənləri bir-bir edam etdikcə, səsini boğduqca sanki zahirindəki Şər hissə-hissə, parça-parça tikişlərdən sökülməyə başlayır. Xeyir Şərə qalib gəlmək üçün gecəni gündüzə yetirmək, günəşi doğurmaq üçün onun bütün varlığını ələk-vələk edir, astarını üzünə çıxarmağa can atır. Onun zahiri də batini ilə döyüşür.

Tamaşadakı Nəsimi konkret Nəsimi personajı deyil. Tamaşaçı sadəcə duyur ki, “Seyid Əli” (İlqar Fəhminin əsərində adı Seyid Əhməd Şamlıdır) adlanan obraz Nəsimidir. Obrazın içində iki əks obraz var. Buradakı Nəsimi qəhrəmandan daha çox, ideyadır, ruhdur, fikirdir, düşüncə, üslub və baxışdır. Yəni, bu Nəsimi cismani Nəsimi deyil. Mənəvi, görünməz, daha çox toxunula bilən yox, hiss edilə bilən Nəsimidir.







## OBRAZI OBRAZ EDƏN AKTYORUN ÖZÜDÜR

Tamaşanın mövzusu, quruluşu və ideyası güclü aktyor heyətinin olmasını tələb edir. Qrim, dekorasiya, işıqlar, musiqi sadəcə fondur. Obrazı obraz edən aktyorun özüdür. Aktyor obrazın dərisinə nə qədər mükəmməl girə bilsə, ruhunu, canını, hətta səs tonunu o obraza nə qədər çevirə bilsə, tamaşa səhnədə bir o qədər uğur qazanacaq. Bu baxımdan aktyor heyətini döyüş batalyonu da adlandırmaq olar. Hamısı bir nöqtəyə mükəmməlcə vurub tamaşanı tamaşa edə biliblər. Onlar səhnəmizin parlaq simaları Xalq artisti Məmmədsəfa Qasımov, Əməkdar artist Qasım Nağı, aktyorlar Ziya Ağa, Əbdülqəni Əliyev, Vüqar Hacıyev, Elgün Həmidov, Amid Qasımov və Elşən Əsgərov idi. Hər birinin səhnədə oyunu bir-birini arada boşluq qalmadan, bir bütöv kimi, vəhdət kimi tamamlayır. O balaca səhnə dönüb böyük bir elm, ədəbiyyat, mədəniyyət epoxasını tamaşaçıya körpü edir.

## AKTYORLARIN QUŞ YÜNGÜLLÜYÜ İLƏ HƏRƏKƏTLƏRİ HEYRAN EDİR



Tamaşanın dinamikliyi, səhnələrin bir-birinin ardınca sanki heç bir pauzasız, tamaşaçını yormadan, sıxmadan davam etməsi və kulminasiya nöqtəsinə çatması da diqqəti çəkir. Aktyorların plastikası, çeldliyi və sanki bir quş yüngüllüyü ilə səhnədə hərəkəti heyran edir. Tamaşanın quruluşçu rəssamı Vüsal Rəhim, plastik həllin müəllifi Ceyhun Dadaşovdur. Bəstəkar Aygün Səmədzadənin musiqisi də səhnəni tamamlayır.

### HƏRƏNİN ÖZ DOĞRUSU...

Tamaşa elə yazılıb, elə qurulub ki, heç kim haqlı deyil, heç kim haqsız da deyil. Hərənin özünə görə doğruları var. Hər bir obraz öz doğrusunu bildiyi, bacardığı qədər mühafizə edir, onun uğurunda mübarizə aparır. Qarşı-qarşıya duran tərəflərdən yuxarıda şərti olaraq adlandırdığım Xeyir və Şər də ayrı-ayrılıqda özlərinə görə haqlıdırlar. Hansının doğrudan da haqlı, hansının haqsız olduğunu, şər və xeyir olduğunu ayırd etmək də olduqca mürəkkəb məsələdir. Buna hər bir tamaşaçı öz dünyagörüşü, düşüncəsi, fikirlərinə əsaslanaraq özü qərar verir.

Ümumiləşdirsək, bu tamaşada həm tarixi, həm ədəbi hadisələr cərəyan etdiyi dövrə uyğun ab-havada, ifrat pafosdan uzaq, müasir formatda təqdim olunub.

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
11 MAY ŞƏNBƏ 2024
kaspi.az

## TOPARLANAN ŞAHRUDDİN, RENAT ÜÇÜN TƏHLÜKƏLİ ZONA




# ETİMADI DOĞRULTMAYAN LEGİONERLƏRİMİZ

Ümumilikdə, legioner həyatı yaşayan oyunçularımız üçün mövsümü uğurlu hesab etmək olmaz. Bunun göstəricisi odur ki, həmin futbolçulardan hər hansı biri irəli addım atmağı bacarmayıb.

Hazırda ölkə xaricində forma geyinən azərbaycanlı futbolçuların sayı kifayət qədər çoxdur. Lakin onların mövcud performansı bir o qədər də azarkeşlərin ürəyincə deyil. Azərbaycanlı legioner oyunçuların əksəriyyəti mövsümün əvvəlində uğurlu çıxış edirdilər, lakin hazırda eyni sözləri demək çətindir.

### "QEYBƏ ÇƏKİLƏN" MAHİR

Bir neçə ildir legioner həyatı yaşayan Mahir Emreli, bəlkə də, ən uğursuz mövsümünü keçirir. Keçən ilin yayında Zaqreb "Dinamo"suna qayıdan hücumçu Xorvatiya çempionatına yaxşı start vermişdi. O, bu mövsüm bütün turnirlərdə ümumilikdə 22 matçda beş qol, beş assistlə yadda qalıb. Sözügedən nəticələr keçən ilə aiddir. Mahir sonuncu dəfə noyabrda "damalılar"ın heyətində meydanda görünüb. Qış fasiləsi zamanı zədələnən forvard sonradan "yoxa çıxıb". Emrelinin niyə oynamadığı barədə dəqiq məlumat yoxdur. Onun komandası isə çempionluğa çox yaxındır.

### QARDAŞ ÖLKƏDƏ FƏRQLİ PERFORMANSLAR

Uğurlu "Qarabağ" karyerasından sonra Tailanda yollanan Ramil Şeydayevin də əvvəlki oyunundan əsər-əlamət qalmayıb. "Buriram Yunayted"də 10 matçda bir qol vuran irəli xətt oyunçusu "Kocaelispor"da 14 görüşdə cəmi bir dəfə fərqlənə bilib. Asiya ölkəsində daha çox meydanda görünən Ramil Türkiyə I Liqa klubunda nisbətən az şans qazanır. Komanda isə Super Liqaya yüksəlmək uğrunda pley-offda mübarizə aparacaq.

Türkiyədəki digər təmsilçilərimizə gəlincə, Vüsal İsgəndərli "Boluspor"da 13 matçda demək olar ki, heç nə ilə yadda qalmayıb. O, mövsümün əvvəlini keçirdiyi Albaniya "Eqnatiya"sında daha yaxşı görünürdü: 17 oyun, altı qol, iki məhsuldar ötürmə. "Boluspor"un isə pley-off oynamaq şansı az deyil. Komanda bunun üçün çox yaxın olduğu ilk "yeddiliy"ə düşməlidir.

Bəxtiyar Həsənalızadə bir müddət əvvəl "Tuzlaspor"un əsas heyətində yerini itirsə də, geridönüş etməyi bacarıb. O, yenidən komandasının əsas oyunçularıdandır. Təcrübəli müdafiəçi bu mövsüm 20 qarşılaşmada şans qazanıb və bir dəfə fərqlənə bilib. Lakin komandası I Liqada düşmə zonasındadır. Tuzla təmsilçisi 14-cü pillədə qərarlaşıb və 17-ci yerdən cəmi iki xal aralıdır.

Coşqun Diniyevin formasını geyindiyi "Ümraniyespor" isə liqada yerini qorumaq missiyasını tamamlamaq üzrədir. Komanda 40 xalla 12-ci pillədə qərarlaşıb. Coşqun əsas heyət üzvü hesab olunur. Lakin onun performansı bir qədər enişli-yoxuşludur. Milli üzvü 30 oyunda üç qol, iki məhsuldar ötürmə ilə yadda qalıb.

Şahruddin Məhəmmədəliyev Türkiyə Super Liqasında oyunu ilə azarkeşlərin rəğbətini qazanıb. O, "Adana Demirspor"a yeni transfer olunanda az oynasa da, hazırda komandanın əsas qapıçısıdır. Tənqidlərə baxmayaraq, toparlanmağı bacaran Şahruddin 23 oyunun beşində qapısını toxunulmaz saxlayıb və 32 qol buraxıb. Komanda isə Super Liqanın ortababıdır. Adana təmsilçisi 44 xalla 11-ci yerdə məskunlaşıb. Renat Dadaşov "Hatayspor"da 28 qarşılaşmada beş qol vurub. Problem ondadır ki, hücumçunun performansı get-gedə zəifləyir. Müqavilə ilə "Qrashopper"ə məxsus olan forvardın İsveçrədəki çıxışı daha gözəgəlimli idi. "Hatayspor"un özünün də vəziyyəti ürəkaçan deyil. Maliyyə problemləri ilə üz-üzə qalan klub Super Liqada 18-ci pillədədir. Komandanın aşağı liqaya düşmək ehtimalı yüksəkdir.

### MUSA DA ÜMİDLƏRİ DOĞRULTMUR

Musa Qurbanlının İsveçdə işləri qaydasında deyil. Düzdür, o, "Yurqorden" karyerasına uğurlu start vermişdi. Ötən mövsümün əvvəlində 14 qarşılaşmada iki qol vuran və bir assist edə bilən hücumçu sonradan ortalarda görünmür. Bir neçə oyunda zəif performansdan sonra Musa əsas heyətdə yerini itirdi. İndi isə onu demək olar ki, "Yurqorden"də görmək mümkün deyil. Yeni mövsümün startından Qurbanlı cəmi iki oyunda az müddət şans qazanıb. Musa daha çox klubun U-21 komandasında meydana çıxır. Onun yayda klubunu dəyişmək ehtimalı yüksəkdir. Musanın "Qarabağ"a qayıdışı ilə bağlı söz-söhbətlər səngimir.

## ETİBARLI MÜDAFİƏÇİLƏR




Cəlal Hüseynov Bolqarıstan "Arda"sının əsas heyət üzvüdür. Millinin müdafiəçisi klubunda 30 matçda bir dəfə fərqlənə də bilib. Komanda isə çempionatın Konfrans Liqası qrupundadır. Lakin bu turnirə vəsiqə qazanmaq şansını artıq itirib.

Anton Krivotsyuk da Cəlal kimi komandasının etibarlı müdafiəçilərindən hesab olunur. O, Cənubi Koreyanın "Daceon Hana Sitizen" klubunda əsas heyət üzvüdür. Anton yeni mövsümdə səkkiz oyunda forma geyinib. Müdafiəçi hətta qol vurmağı da bacarıb. Lakin onun da komandasının performansı zəifdir. Klub II Liqada 12 kollektiv arasında səkkizincidir.

Ümumilikdə, legioner həyatı yaşayan oyunçularımız üçün mövsümü uğurlu hesab etmək olmaz. Bunun göstəricisi odur ki, həmin futbolçulardan hər hansı biri irəli addım atmağı bacarmayıb.

Mövcud performansa əsasən isə növbəti transfer dövründə bunun olması inandırıcı görünmür. Haqqında bəhs etdiyimiz futbolçulardan bir neçəsini növbəti mövsüm yenidən Azərbaycan klublarında görsək, təəccüblənməməliyik.